# Azərbaycanda Şagirdlərin İnternet və Rəqəmsal Bacarıqlardan İstifadəsinə dair Araşdırma

Bakı, 2021

# Mündəricat


Xülasə ........ 3
GİRİŞ ........ 4
METODOLOGİYA ........ 4
Araşdırma Qrupu ........ 5
Məlumat toplama vasitələri ........ 7
Məlumatların toplanılması və təhlili ........ 7
TAPINTILAR ........ 8
NƏTİCƏ VƏ TÖVSİYƏLƏR ........ 32
ƏLAVƏ. ........ 40

## Xülasə

Bu araşdırmanın məqsədi Azərbaycanın müxtəlif bölgələrindəki ümumtəhsil müəssisələrində təhsil alan 9-17 yaşlı uşaq və gənclərin internet və rəqəmsal texnologiyalardan istifadəsi haqqında məlumat toplamaq və bu məlumatları təhlil etməkdir. Araşdırma 2020-2021-ci tədris ilinin ilk yarım ilində həyata keçirilmişdir. Tədqiqatda Azərbaycanın müxtəlif bölgələrindəki ümumtəhsil müəssisələrində təhsil alan 5815 şagird iştirak etmişdir. Araşdırma onlayn qaydada aparıldığı üçün şagirdlərin sorğuya cəlb edilməsi məqsədi ilə valideynlərdən, müəllimlərdən və direktor və direktor müavinlərindən dəstək alınmışdır. Tədqiqat çərçivəsində şagirdlərdən cinsiyyət, yaş, oxuduğu sinif, təhsil aldığı məktəbin yerləşdiyi bölgə kimi demoqrafik məlumatlarla yanaşı internet və rəqəmsal bacarıqlarını və bu bacarıqlardan istifadə edilməsinə dair məlumatları müəyyən etmək üçün 27 müxtəlif sual soruşulmuşdur. Şagirdlərin müvafiq sualla verdikləri cavablar qrafiklərlə göstərilmiş və şərh olunmuşdur. Tədqiqatın sonunda əldə edilən nəticələrə əsasən tövsiyələr təqdim olunmuşdur.



**Açar sözlər:** *rəqəmsal bacarıq, şagird, ümumtəhsil məktəbi, Azərbaycan*

## GİRİŞ

2020-ci ilin sonlarına doğru ilk dəfə Çində rast gəlinən və demək olar ki, qısa müddət ərzində bütün dünyaya yayılaraq pandemiyaya çevrilən COVID-19 səbəbi ilə Azərbaycan məktəbliləri məcburi bir şəkildə rəqəmsal transformasiya ilə qarşı-qarşıya qalmışdır. 28 fevral 2020 tarixində Azərbaycanda ilk COVID-19 halının aşkarlanmasından sonra Nazirlər Kabinetinin qərarı ilə ölkə ərazisində fəaliyyət göstərən bütün təhsil müəssisələri bağlanmış və beləliklə təhsil prosesinə müvəqqəti olaraq fasilə verilmişdir. Təhsil müəssisələrinin növbəti tarixlərdə açılması planlasa da, infeksiyanın yayılma sürəti bu prosesin həyata keçirilməsinə mane olmuşdur. UNESCO (2020a) tərəfindən təqdim olunan statistik məlumatlarda Azərbaycanda COVID-19 infeksiyası səbəbindən təhsil prosesinə ara verilməsinin ölkədəki 1.983.999 şagird və tələbəyə təsir etdiyi görünmüşdür. Təhsil müəssisələrinin fəaliyyətinə bir müddət fasilə verməsi və daha sonrakı dövrlərdə təlim-tədris prosesinin məsafədən olacaq şəkildə həyata keçirilməsi məktəbəqədər təhsil pilləsində 203011; ibtidai təhsil səviyyəsində 635153, ümumi orta və tam orta təhsil pilləsində 945226 və daha üst pillə və səviyyələrdəki (orta ixtisas və ali təhsil) 200609 şagird və tələbəyə təsir etmişdir.

Rəqəmsal əsr olaraq da ifadə edə biləcəyimiz XXI əsrdə rəqəmsal texnologiyaların inkişafı və istifadəsi bütün sahələrdə olduğu kimi təhsil sahəsinə də öz təsirini göstərmişdir. Lakin xüsusilə pandemiyanın başlaması ilə dəftər, qələm və kitablar öz yerini yavaş-yavaş kompüterlə, informasiya texnologiyalarına və Web 2.0 alətlərinə vermişdir. Pandemiyanın başlaması təhsilin bütün sahələrində rəqəmsal texnologiyaların istifadəsini məcburi və zəruri etmişdir. Bu çərçivədə məktəb və universitetlərdəki təlim-tədris fəaliyyətləri onlayn olacaq şəkildə davam etdirilmişdir. Mövcud fövqəladə şərtlər içərisində təhsilin hər pillə və səviyyəsindəki uşaq və yeniyetmələr onlayn tədris prosesinin iştirakçıları olmuşdur.

Azərbaycanın bütün bölgələrindəki ümumtəhsil məktəblərində təhsil prosesinə davam edən uşaq və yeniyetmələrin pandemiya şəraitində təhsillə bağlı fəaliyyətlərə onlayn formada davam etməsi vəziyyəti müxtəlif sualların ortaya çıxmasına səbəb olmuşdur. Mövcud vəziyyəti təhlil etmək və yaranmış suallara cavab tapmaq üçün müvafiq araşdırmanın aparılması zərurəti yaranmışdır. Beləliklə, bu araşdırmada 2020-2021-ci tədris ilində Azərbaycanın müxtəlif bölgələrindəki ümumtəhsil məktəblərində təhsil alan 9-17 yaşlı şagirdlərin internet və rəqəmsal bacarıqlardan istifadəni müəyyən etmək məqsəd olaraq qarşıya qoyulmuşdur. Bu məqsədi həyata keçirmək üçün şagirdlərə müxtəlif kateqoriyalar üzrə suallar ünvanlanmışdır (ƏLAVƏ). Məktəblilərin müvafiq suallara verdikləri cavabların tezlikləri təhlil edilmiş və tapıntılar bölməsində qrafiklərlə göstərilmişdir. Yekunda isə araşdırma nəticəsində əldə olunan tapıntılar şərh edilmiş və əldə olunan tapıntılara uyğun olaraq tövsiyələr hazırlanmışdır.

## METODOLOGİYA

Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən ümumtəhsil məktəblərində təhsil alan 9-17 yaşlı şagirdlərin internet və rəqəmsal bacarıqlardan istifadəsini müəyyən etmək məqsədi ilə həyata keçirilən bu araşdırmada kəmiyyət metodlarından istifadə olunmuşdur.

### *Araşdırma Qrupu*

Araşdırma qrupu 2020-2021-ci tədris ilinin ilk yarım ilində müxtəlif bölgələrdəki ümumtəhsil məktəblərində təhsil alan 9-17 yaşlı məktəblilərdən formalaşmışdır. Araşdırmada 5815 şagird iştirak etmişdir. Şagirdlərin cinsiyyət, yaş, oxuduğu sinif və təhsil aldığı məktəbin fəaliyyət göstərdiyi bölgə dəyişkəninə görə bölgüsü təhlil edilmiş və qrafiklərlə göstərilmişdir.

İştirakçı şagirdlərin cinsiyyət dəyişkəninə görə bölgüsü Şəkil 1-də göstərilmişdir.




*Qrafik 1. Şagirdlərin cinsiyyət üzrə bölgüsü*

Qrafik 1-dən göründüyü kimi araşdırmada 5815 şagird iştirak etmişdir. Şagirdlərin 2908-i (50%) oğlan, 2907-si (50%) isə qızdır. Pandemiya səbəbindən şagirdlərə sorğu müəllimlər, məktəb direktorları və Rayon/Şəhər Təhsil Şöbələrinin əməkdaşlarının dəstəyi ilə onlayn platformalar vasitəsi ilə göndərilmişdir. Araşdırma iştirakçıları arasında gender bərabərliyinin qorunması məqsəd olaraq qarşıya qoyulsa da yekun rəqəmlərin demək olar ki, eyni olması təsadüfi olmuşdur. Beləliklə, araşdırmada iştirak edən şagirdlərin cinsiyyət dəyişkəninə görə balans qorunmuşdur.

Araşdırmada 9-17 yaşlı şagirdlərin iştirakı nəzərdə tutulmuşdur. Şagirdlərin yaş üzrə bölgüsü Qrafik 2-də əks olunmuşdur.




*Qrafik 2. Şagirdlərin yaş üzrə bölgüsü*

Araşdırmada iştirak edən şagirdlərin 2272-i (39,1%) 9-11 yaşlarında, 2308-i (39,7%) 12-14 yaşlarında, 1235-i (21,1%) isə 15-17 yaşlarında olmuşdur.

Şagirdlərin oxuduğu sinif  üzrə bölgüsü təhlil edilmiş və Qrafik 3-də göstərilmişdir.




*Qrafik 3. Şagirdlərin siniflər üzrə bölgüsü*

Araşdırmada iştirak edən şagirdlərin  1274-ü (21,9%) 4-cü sinifdə758-i (13%) 5-ci sinifdə,  835-i (14,4%) 6-cı sinifdə, 772-i (13,3%) 7-ci sinifdə, 702-i (12%) 8-ci sinifdə,  754-ü (13%) 9-cu sinifdə,370-i (6,4%) 10-cu sinifdə, 350-i (6%) isə 11-ci sinifdə oxuduğunu bildirmişdir. Beləliklə, araşdırmada iştirak edən şagirdlər arasında 4-cü sinifdə oxuyanların sayının üstünlük təşkil etdiyi müşahidə olunmuşdur. Ən az say isə 11-ci sinif şagirdlərini ifadə etmişdir.

İştirakçı şagirdlərin oxuduqları məktəblərin yerləşdiyi bölgələrə görə bölgüsü təhlil edilmiş və Qrafik 4-də qeyd olunmuşdur.




| | Bölgələr | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Bakı və Abşeon | Lənkəran | Aran | Gəncə-Qazax | Dağlıq Şirvan | Şəki-Zaqatala | Quba-Xaçmaz |
| ■ Say | 1779 | 3022 | 522 | 278 | 130 | 59 | 25 |

*Qrafik 4. Şagirdlərin bölgələrə görə bölgüsü*

Qrafik 4-dən göründüyü kimi, araşdırmada iştirak edən şagirdlərin 3022-si (52%) Lənkəran bölgəsindəki ümumtəhsil məktəblərində təhsil aldığını qeyd etmişdir. 1779 şagird (30,6%) Bakı və Abşeron ərazisindəki məktəblərdə, 522 şagird (9%) Aran bölgəsindəki ümumtəhsil məktəblərində, 278 şagird (4,8%) Gəncə-Qazax bölgəsindəki ümumtəhsil məktəblərində, 130 şagird (2,2%) Dağlıq Şirvan bölgəsindəki ümumtəhsil məktəblərində, 59 şagird (1%) Şəki-Zaqatala bölgəsindəki ümumtəhsil məktəblərində və son olaraq 31 şagird (0,4%) isə Quba-Xaçmaz bölgəsindəki ümumtəhsil məktəblərində təhsil aldığını bildirmişdir. Araşdırma pandemiya dövrünün şərtlərinə riayət edilməklə onlayn qaydada aparıldığı üçün regionlar üzrə balansı tam təmin etmək mümkün olmamışdır. Eyni zamanda sorğuda ilk başda hədəflənən 500 sayısından daha artıq şagird iştirak etsə də təhlilin ümumi iştirakçıların hamısını əhatə etməsinə qərar verilmişdir.

## *Məlumat toplama vasitələri*

Araşdırmada məlumat toplamaq üçün şagirdlərə müxtəlif suallar ünvanlanmışdır. Şagirdlərdən ümumilikdə 10 kateqoriya *(Azərbaycanda internetə çıxış və istifadə imkanları; Ailələrdə rəqəmsal cihazların mövcudluğu ilə əlaqəli vəziyyət; Şagirdlərin rəqəmsal bacarıqlarının vəziyyəti; Rəqəmsal texnologiyaların istifadəsində məktəb təcrübəsi ilə əlaqəli vəziyyət; Rəqəmsal istifadədə valideyn və müəllim vasitəçiliyi ilə bağlı vəziyyət; COVİD-19 pandemiyası dövründə uşaq və gənclərin rəqəmsal istifadəsinin vəziyyəti; Həddindən artıq internet istifadəsi ilə əlaqəli vəziyyət; Onlayn platformalar üzərində şagirdlərin yaşıdları və dostları ilə münasibətləri ilə bağlı vəziyyət; Sosial şəbəkə səhifələrinin və video oyun platformalarının istifadəsindəki vəziyyət; Kiber zorakılıqla bağlı vəziyyət)* üzrə 27 sual soruşulmuşdur (ƏLAVƏ). Sualları hazırlayarkən hər bir kateqoriyanın aid olduğu sahələr üzrə beynəlxalq ədəbiyyatda aparılmış elmi tədqiqatlar təhlil edilmiş və sual hovuzu formalaşdırılmışdır.

## *Məlumatların toplanılması və təhlili*

Tədqiqat çərçivəsində məlumatlar 2020-2021-ci ilin birinci yarım illiyində toplanılmışdır. COVID-19 pandemiyası və bunun nəticəsində ölkə ərazisindəki bütün təhsil müəssisələrinin

bağlanılması araşdırma üçün məlumat toplama prosesinin onlayn formada həyata keçirilməsini zəruri etmişdir. Bu səbəbdən tədqiqatda məlumat toplamaq məqsədi ilə istifadə olunan suallar Google Form üzərində hazırlanmışdır və müəllimlər, məktəb direktorları və Rayon/Şəhər Təhsil Şöbələrinin əməkdaşlarının dəstəyi ilə şagirdlərə onlayn platformalar vasitəsi ilə göndərilmişdir. Məlumat toplama müddəti təxminən 2 həftə davam etmişdir. Google Form üzərindən əldə olunan məlumatlar "Excel" faylına transfer edilmişdir və təhlil üçün hazır vəziyyətə gətirilmişdir.10 kateqoriya üzrə 27 sualın hər biri təhlil edilmiş, sualların tezlikləri hesablanmış və şərh edilmişdir.

## TAPINTILAR

Tədqiqatda iştirak edən şagirdlərdən 10 kateqoriya üzrə ümumilikdə 27 sual soruşulmuşdur. Tədqiqatın aparıldığı dövrdə 9-17 yaşlı şagirdlərdən onların internetə çıxış və istifadə imkanlarının və şagirdlərin ailələrində rəqəmsal cihazların mövcudluğunun hansı vəziyyətdə olduğunun müəyyənləşdirilməsi məqsədilə müxtəlif suallar soruşulmuşdur. Həmçinin, şagirdlərin rəqəmsal bacarıqlarının səviyyəsini müəyyən etmək üçün mövzu ilə əlaqəli müxtəlif suallar da ünvanlanmışdır. Tədqiqatda rəqəmsal texnologiyaların istifadəsində şagirdlərin oxuduqları məktəblərdə vəziyyətin necə olduğu, rəqəmsal istifadədə valideyn və müəllim vasitəçiliyinin hansı səviyyədə olduğu da müəyyənləşdirilməyə çalışımışdır. Əlavə olaraq, COVID-19 pandemiyası dövründə şagirdlərin rəqəmsal istifadəsində hər hansı bir fərqliliyin olub-olmamasını aşkar etmək üçün şagirdlərə müxtəlif suallar ünvanlanmışdır. COVID-19 pandemiyası zamanı şagirdlərdə həddindən artıq internet istifadəsi probleminin olub-olmaması, sosial şəbəkələrdən və video oyun platformalarından istifadənin hansı vəziyyətdə olduğu, şagirdlərin həmyaşıdları və dostları ilə münasibətlərinin onlayn platformalar üzərində hansı dərəcədə qurulduğu və kiber zorakılıq ilə bağlı vəziyyət də öyrənilməyə çalışılmışdır. Qeyd olunan mövzular üzrə şagirdlərə müxtəlif suallar ünvanlanmış və verilmiş cavablar təhlil edilmişdir.

1. **Azərbaycanda internetə çıxış və istifadə imkanları necədir?**

COVID-19 pandemiyası dövründə təhsil prosesinin fasiləsizliyini təmin etmək üçün təhsil müəssisələri üzbəüz formadan onlayn təhsilə keçmək məcburiyyətində qalmışdır. Heç bir onlayn təhsil təcrübəsi olmayan Azərbaycanda, proses ərzində müəyyən problemlərin yarandığını ifadə etmək mümkündür. Yaranan problemlərin mənbələri təhlil edildiyi zaman bu problemlərin onlayn dərsə qoşulmaq üçün zəruri olan elektron cihazlarla, internetə çıxışdakı məhdudiyyətlərlə, internet bağlantısının keyfiyyətindəki problemlərlə əlaqəli olduğu görünmüşdür.

Azərbaycan məktəbliləri arasında aparılmış bu sorğuda iştirak edən şagirdlərin evlərində internetə çıxış və istifadə imkanları haqqında məlumat əldə etmək üçün suallar soruşulmuşdur. Şagirdlərin müvafiq suala verdikləri cavablar Qrafik 5-də əks olunmuşdur.




*Qrafik 5. Evdə istifadə olunan internetin növü*

Qrafik 5-dən göründüyü kimi araşdırmada iştirak edən şagirdlərin 4615-i (79,4%) internetə qoşulmaq üçün evlərində "wifi" olduğunu qeyd etsə də, 1200 şagird (20,6%) isə internetə qoşulmaq üçün mobil telefon üçün olan internet paketindən istifadə etdiyini qeyd etmişdir. Bu nəticəyə əsasən şagirdlərin böyük bir hissəsinin genişzolaqlı internet istifadəçisi olduğu ifadə edilə bilər. Azərbaycan İnformasiya Cəmiyyəti (2020) tərəfindən təqdim olunan statistikalarda 2015-ci ildə ölkə ərazisində internetə qoşulma növlərinə görə ev təsərrüfatları bölgüsündə, geniş zolaqlı xətt ilə internetə qoşulanların 71,1%, mobil telefon vasitəsi ilə internetə qoşulanların 25,1% və digər vasitələrlə internetə qoşulanların 3,8% təşkil etdiyi görünmüşdür. 2019-cu ildə isə ölkə ərazisində internetə qoşulma növlərinə görə ev təsərrüfatları bölgüsündə, geniş zolaqlı xətt ilə internetə qoşulanların 72%, mobil telefon vasitəsi ilə internetə qoşulanların 25,2% olduğu qeyd olunmuşdur. Digər vasitələrlə internetə qoşulanların faizi isə 2,8% olduğu ifadə olunmuşdur. 2015-2019-cu illər arasında istər geniş zolaqlı xətt ilə, istərsə də mobil telefon üçün olan internet paketlərinin istifadəsində qismən artımın olduğu müşahidə olunmuşdur. Bu isə əhali arasında internet istifadəsinin artması şəklində şərh oluna bilər.

Həmçinin, istifadə edilən internet bağlantısının keyfiyyəti ilə əlaqədar sual şagirdlərə ünvanlanmışdır. Müvafiq suala verilən cavablar Qrafik 6-da göstərilmişdir.




*Qrafik 6. İstifadə olunan internetin keyfiyyəti*

Qrafik 6-ya nəzər yetirildiyi zaman,1308 (22,5%) şagirdin internetin keyfiyyətinin “çox pis” olduğunu, 1603 (27,6%) şagirdin internetin keyfiyyətinin “qənaətbəxş” olduğunu, 2394 (41,1%) şagirdin internetin keyfiyyətinin “yaxşı” olduğunu və 510 (8,8%) şagirdin isə internet bağlantısının keyfiyyətinin “əla” olduğunu qeyd etdiyi görünmüşdür. Ümumi olaraq qiymətləndirildiyi zaman sorğuda iştirak edən şagirdlərin təxminən 50%-nin internetin keyfiyyətindən məmnun olduğunu, 22,5% şagirdin isə internet bağlantısının keyfiyyətindən qətiyyən məmnun olmadığını qeyd etmək mümkündür.

Pandemiyanın gətirdiyi çətinliklər, bir çox işin icrasının məcburən onlayn formaya keçirilməsi əhali arasında internet istifadə edənlərin sayının artmasına gətirib çıxarmışdır. Eyni vaxtda internetdən kütləvi istifadə edilməsi halları isə internet bağlantısının keyfiyyətinin aşağı düşməsinə, bağlantının qopması və s. kimi mənfi halların yaranmasına səbəb olmuşdur. 2020-ci ilin noyabr ayına aid olan qlobal internet sürətləri ilə bağlı statistikalar təhlil edildiyi zaman Azərbaycanın istər mobil (31.45 mbps), istərsə də sabit geniş zolaqlı (23.04 mbps) internetə qoşulma sürətinin dünya ortalamasından (45.69/91.96 mbps) daha aşağı olduğu müəyyən edilmişdir (OOKLA, 2020). Bu isə internetə çıxışda məhdudiyyətlərin yaranmasını təsdiq edə biləcək bir fakt olaraq qiymətləndirilmişdir.

Mövzu ilə əlaqəli aparılan sorğularda da bənzər nəticələr əldə olunmuşdur. Belə ki, ölkə ərazisində aparılan bir sorğuda, internet bağlantısının keyfiyyətindəki problemlər və şagirdlərin şəxsi kompüterlərinin olmaması kimi məsələlər bu proses ərzində ən çox narahatlıq doğuran məsələlər olaraq qeyd edilmişdir. Xüsusilə uşaq sayının çox olduğu ailələrdə kompüterlərin, smartfonların və evdəki otaq sayı kimi faktorların bu prosesə mənfi təsirinin olduğu ifadə edilmişdir (Sadiq, 2020).

## 2. Ailələrdə rəqəmsal cihazların mövcudluğu hansı vəziyyətdədir?

Mövcud araşdırmada şagirdlərdən, ailədə dərs və ya iş üçün internetə qoşulmaq məcburiyyətində olan şəxslərin sayı ilə ailədəki elektron cihazlarının sayının nə qədər uyğun olub-olmadığı haqqında məlumat əldə etmək üçün müvafiq sual ünvanlanmışdır. Suala verilən cavablar Qrafik 7-də əks olunmuşdur.




*Qrafik 7. Ailədə elektron cihazların vəziyyəti*

Qrafikdən göründüyü kimi, 2602 (44,7%) şagird ailədə iş və ya dərs üçün kompüter istifadə edən şəxs sayının evdəki elektron cihaz sayına bərabər olduğunu, 2872 (49,4%) şagird cihaz sayının işləyən və ya məktəbli/tələbə olan şəxs sayından az olduğunu və 341 (5,9%) şagird isə cihaz sayının işləyən və ya məktəbli/tələbə olan şəxs sayından çox olduğunu ifadə etmişdir. Təhlil sonunda əldə edilmiş nəticələr şagirdlərin təxminən yarısının ailəsində elektron cihazların sayının işləyən və məktəbli və ya tələbə olan şəxs sayından daha az olduğuna işarə etmişdir. Bu nəticə isə şagirdlərin ailələrində internetə çıxış üçün ehtiyac duyulan cihaz sayının qənaətbəxş olmamasını göstərmişdir.

Reimers və Schleicher (2020) tərəfindən təqdim olunan bir hesabatda PISA 2018 nəticələrinə əsasən məktəb tapşırıqlarını yerinə yetirmək üçün kompüterə sahib olan şagirdlərin ölkələrə görə faiz nisbətləri göstərilmişdir. Müvafiq siyahıda 77 ölkə arasında Azərbaycan (sadəcə Bakı şəhəri) 62-cı sırada yer almışdır. Kompüterdən istifadə imkanları olan şagirdlərin ortalaması 70%-ın altında ikən “avantajlı (üstünlüklərə sahib) məktəblərdə” oxuyan şagirdlərdə bu faiz təxminən 80-ə yaxınlaşmışdır.

Ailədə məktəb yaşlı uşaqların sayının çox olması, şagirdlərin dərs saatlarının üst-üstə düşməsi, istifadə edilən elektron cihazların vəziyyətinin qənaətbəxş olmaması kimi səbəblərin mövcud durum qarşısında şagirdlərə əngəl törətdiyi düşünülə bilər. Bu isə özlüyündə şagirdlərin müəyyən bir hissəsinin təməl insan haqlarından biri olan təhsil haqqından faydalana bilməməsini ifadə edir.

Araşdırmada şagirdlərdən ailələrində ən çox hansı elektron cihazdan istifadə edidiyi soruşulmuşdur. Şagirdlərin müvafiq suala verdiyi cavablar Qrafik 8-də təsvir olunmuşdur.




*Qrafik 8. Ailədə ən çox istifadə olunan elektron cihaz*

Şagirdlərin bu suala verdiyi cavablar təhlil edildiyi zaman, şagirdlərin ailələrində ən çox telefondan istifadə edildiyi görünmüşdür. Belə ki, sorğuda iştirak edən şagirdlərin böyük bir qismi, yəni 5656 (97,3%) şagird ailədə ən çox istifadə olunan cihazın telefon olduğunu qeyd etmişdir. Habelə, 116 (2%) şagird kompüter və 43 (0,7%) şagird isə planşet istifadə edildiyini vurğulamışdır. Bu isə sorğuda iştirak edən məktəblilərin ailələrində mobil telefon istifadəçilərinin sayının daha çox olduğu şəklində şərh edilə bilər.

Mobil telefonun praktik və istifadə üçün asan olduğu, gündəlik həyat üçün istifadəyə daha çox əlverişli olduğu, həmçinin asan daşına bilən olması kimi xüsusiyyətlərinin kompüterlə müqayisədə daha avantajlı (əlverişli) olduğu ifadə edilə bilər. Bu mənada əldə olunan bu nəticənin gözlənilən olduğu qeyd edilə bilər.

Azərbaycanda İnformasiya Cəmiyyəti tərəfindən hazırlanan Statistik Məcmuədə (2020) ölkə ərazisində kompüterdən istifadə edən əhalinin ölkə üzrə bütün əhalinin sayındakı xüsusi çəkisinin 2015-ci ildə 69,9% olduğunu, 2019-cu ildə bu faizin 71,1%-a yüksəldiyi görünmüşdür. Qısa müddət ərzində ölkə ərazisində kompüterlərdən istifadə edənlərin sayının artdığı müşahidə olunsa da, sorğu sonunda əldə olunan nəticə ailələrdə kompüter sayı ilə şəxs sayı arasında bir bərabərsizliyin olmasına işarə etmişdir.

**Şagirdlərin rəqəmsal bacarıqları hansı vəziyyətdədir?**

9-17 yaşlı şagirdlərin rəqəmsal bacarıqlarının hansı səviyyədə olması ilə əlaqəli məlumat əldə etmək üçün şagirdlərə müvafiq mövzuda suallar ünvanlanmış və şagirdlərin cavabları Qrafik 9-da göstərilmişdir.




*Qrafik 9.Şagirdlərin rəqəmsal bacarıqları*

Qrafikdən də göründüyü kimi, sorğuda iştirak edən şagirdlərin "İnternet vasitəsi ilə hər cür məlumat əldə edə bilərəm" sualına verdikləri cavabların tezliyi təhlil edildiyi zaman 937 (16,1%) şagird bu suala "tamamilə razıyam", 2332 (40,1%) şagird "razıyam", 1971 (33,9%) şagird "qismən razıyam", 314 (5,4%) şagird "razı deyiləm" və 261(4,5%) şagird isə "qətiyyən razı deyiləm" cavabını vermişdir. Bu nəticəyə əsasən, şagirdlərin 3269-nun (56,2%) ehtiyac duyduğu məlumatları əldə edə bildiyini qeyd etmək mümkündür. Bundan əlavə 575 (9,9%) şagirdin isə ona lazımlı ola biləcək məlumatları əldə edə bilmədiyi və ya müxtəlif səbəblərdən əldə etməyə çətinlik çəkdiyini qeyd etmək mümkündür.

Əlavə olaraq şagirdlərə rəqəmsal texnologiyalardan istifadə üçün yetəri qədər bacarığa sahib olub-olmadıqları ilə əlaqəli verilən cavablar təhlil edilmiş və Qrafik 10-da göstərilmişdir.




*Qrafik 10. Şagirdlərin rəqəmsal bacarıqları*

Qrafik 10-dan göründüyü kimi, “Rəqəmsal texnologiyalardan istifadə etmək üçün kifayət qədər bacarıqlara sahibəm” ifadəsinə şagirdlərin 987-si (17%) “tamamilə razıyam”, 2413-ü (41,5%) “razıyam”, 1956-sə (33,6%) “qismən razıyam”, 316-sı (5,4%) “razı deyiləm” və 143-ü (2,5%) isə “qətiyyən razı deyiləm” cavabını vermişdir. Cavablara əsasən şagirdlərin yarısından çoxu rəqəmsal texnologiyalardan istifadə etmək üçün yetəri qədər bacarığa sahib olduğunu düşünür. Həmçinin, təxminən 8% şagirdin rəqəmsal texnologiyalardan istifadə etmək üçün lazımı qədər bacarığa sahib olmadığını düşündüyünü qeyd etmək mümkündür. 21-ci əsr bacarıqlarından biri olan rəqəmsal bacarıqlara şagirdlərin böyük bir hissəsinin sahib olduğunu düşünməsi müsbət bir hal olaraq qiymətləndirilə bilər.

### 3. COVID-19 pandemiyası dövründə uşaq və gənclərin rəqəmsal istifadəsində hər hansı bir fərqlilik oldumu?

COVID-19 pandemiyası dövründə uşaq və gənclərin rəqəmsal istifadəsində hər hansı bir fərqliliyin olub-olmamasını müəyyən etmək üçün mövzu ilə əlaqəli soruşulan suallara verilən cavablara əsasən qeyd etmək mümkündür ki, COVID-19 pandemiyasından əvvəlki dövr ilə müqayisədə pandemiya dövründə elektron cihazlardan və internetdən istifadə ilə əlaqəli şagirdlərin cavabları müxtəlif olmuşdur. Şagirdlərin cavabları Qrafik 11-də göstərilmişdir.




*Qrafik 11. COVID-19-dan əvvəlki və sonrakı dövrdəki vəziyyət*

Qrafik 11-dən də göründüyü kimi sorğuda iştirak edən şagirdlərdən 4406-sı (75,8%) pandemiyadan əvvəlki dövr ilə müqayisədə pandemiya dövründə rəqəmsal texnologiyalardan daha çox istifadə etdiyini, 1016-sı (17,5%) pandemiyadan əvvəl və sonra rəqəmsal texnologiyalardan eyni qədər istifadə etdiyini bildirmişdir. 393 (6,7%) şagird isə rəqəmsal texnologiyalardan pandemiyadan əvvəl daha çox istifadə etdiyini qeyd etmişdir. Rəqəmlər təhlil edildiyi zaman şagirdlərin böyük bir hissəsinin, daha dəqiq ifadə edilərsə 76% şagirdin pandemiya dövründə rəqəmsal texnologiyalardan istifadə miqdarının artdığını ifadə etmək mümkündür.

COVID-19 pandemiyasının ölkə ərazisində geniş yayılması təkcə təhsil müəssisələrinin bağlanmasını və təhsil prosesinin məsafədən olacaq şəkildə həyata keçirilməsini zəruri etməmiş, eyni zamanda evə qapanmalar da şagirdlərin digər həmyaşıdları və dostları ilə zaman keçirməsini və sosiallaşma fəaliyyətlərinin rəqəmsal texnologiyalardan istifadə edilərək həyata keçirilməsini zəruri etmişdir. Belə ki, mövcud durumu daha yaxşı anlamaq üçün şagirdlərdən COVID-19-dan öncə rəqəmsal texnologiyalardan daha çox hansı məqsədlə istifadə etdikləri soruşulmuşdur və şagirdlərin cavabları Qrafik 12-də göstərilmişdir.




*Qrafik 12. COVID-19 dövründən əvvəl rəqəmsal texnologiyalardan istifadənin vəziyyəti*

Müvafiq suala verilən cavablar təhlil edildiyi zaman, 2993 (51,5%) şagird "dərs tapşırıqlarının yerinə yetirilməsi üçün", 1462 (25,1%) şagird "dərsdənkənar öyrənmə fəaliyyətləri üçün", 574 (9,9%) şagird oyun üçün, 398 (6,8%) şagird "sosial şəbəkələr üçün" və 388 (6,7%) şagird isə "dostlarla söhbət üçün" rəqəmsal texnologiyalardan istifadə etdiyini ifadə etmişdir. Bu nəticələrə əsasən COVIV-19-dan əvvəlki dövrlərdə şagirdlərin təxminən 77%-nin rəqəmsal texnologiyalardan ən çox dərs və dərsdən kənar öyrənmə fəaliyyətləri üçün istifadə etdiyi qeyd edilə bilər. Həmçinin bu nəticə, şagirdlərin təxminən 23%-nin isə rəqəmsal texnologiyalardan sosial şəbəkələr, oyun və dostlarla söhbət üçün istifadə etdiyi şəklində də şərh edilə bilər.

COVID-19-dan əvvəlki dövrlə müqayisədə COVID-19 pandemiyası dövründə şagirdlərin rəqəmsal texnologiyalardan istifadə məqsədlərində hər hansı bir dəyişikliyin olub-olmamasını müəyyən etmək üçün müvafiq sual ünvanlanmışdır. Şagirdlərin cavabları Qrafik 13-də əks olunmuşdur.




*Qrafik 13. COVID-19 sonrası rəqəmsal istifadənin vəziyyəti*

Şagirdlərin COVID-19-dan sonra rəqəmsal texnologiyalardan daha çox hansı məqsədlə istifadə etdiklərinə dair cavablar analiz edildiyi zaman isə 4419 (76%) şagird "dərs tapşırıqlarının yerinə yetirilməsi üçün", 881 (15,1%) şagird "dərsdənkənar öyrənmə fəaliyyətləri üçün", 197 (3,4%) şagird oyun üçün, 190 (3,3%) şagird "sosial şəbəkələr üçün" və 128 (2,2%) şagird isə "dostlarla söhbət üçün" rəqəmsal texnologiyalardan istifadə etdiyini bildirmişdir.

Şagirdlərin COVID-19-dan öncə və COVID-19 dövründə şagirdlərin rəqəmsal texnologiyalardan istifadə məqsədlərinə dair suallara verdikləri cavablar müqayisə edildiyi zaman, rəqəmsal texnologiyalardan dərs tapşırıqlarının yerinə yetirilməsində istifadə miqdarının artdığını ifadə etmək mümkündür. Digər bir ifadə ilə, COVID-19 pandemiyasından əvvəl 2993 (51,5%) şagird rəqəmsal texnologiyalardan dərs tapşırıqlarının yerinə yetirilməsi üçün istifadə etdiyini qeyd etdiyi halda, COVID-19 dövründə dərs tapşırıqlarının icrası üçün rəqəmsal texnologiyalardan istifadə edən şagirdlərinin sayının 4419 (76%) olduğu müşahidə olunmuşdur. Təhsil prosesinin məsafədən olacaq şəkildə təşkil olunduğu nəzərə alındığı zaman bu rəqəmlərin artmasının təbii bir hal olduğu ifadə edilə bilər. Lakin COVID-19 pandemiyasından əvvəl rəqəmsal texnologiyalardan ən çox dərsdənkənar öyrənmə fəaliyyətləri üçün istifadənin miqdarının COVID-19 dövründə azaldığı görünmüşdür. Belə ki, COVID-19 pandemiyasından əvvəl 1462 şagird (25,1%) rəqəmsal texnologiyalardan dərsdənkənar öyrənmə fəaliyyətləri üçün istifadə etdiyini qeyd etdiyi halda COVID-19 dövründə bu məqsədlə rəqəmsal texnologiyalardan istifadən edən şagirdlərin sayının 881 (15,1%) olduğu müşahidə olunmuşdur. Bənzər şəkildə, COVID-19-dan öncəki rəqəmlər ilə müqayisədə COVID-19 dövründə şagirdlərin oyun, sosial şəbəkələr və dostlarla söhbət üçün rəqəmsal texnologiyalardan istifadə miqdarlarında azalmaların olduğu görünmüşdür. Pandemiyadan əvvəlki dövrdə şagirdlərin təxminən 23%-i rəqəmsal texnologiyalardan sosial şəbəkələr, oyun və dostlarla söhbət üçün istifadə etdiyini bildirdiyi halda pandemiya dövründə sosial şəbəkələr, oyun və dostlarla söhbət üçün rəqəmsal texnologiyalardan istifadə faizi 8,9% olaraq müşahidə edilmişdir. Əldə olunan bu nəticənin müxtəlif səbəblərdən qaynaqlandığı düşünülə bilər. Belə ki, xüsusən, geniş zolaqlı internet növündən istifadə etmə imkanları olmayan ailələrdə internetə çıxışdakı məhdudiyyətlər, valideynlər tərəfindən xüsusilə daha azyaşlı məktəblilərin rəqəmsal texnologiyalardan istifadə miqdarına qoyulan məhdudiyyətlər və ya şagirdlərin təhsillə əlaqəli fəaliyyətlər üçün rəqəmsal texnologiyalardan əvvəlki ilə müqayisədə daha çox istifadə etmələri və həddindən çox istifadə nəticəsində rəqəmsal tükənmişlik yaşama halları kimi səbəblərdən qaynaqlı olaraq virtual dünyada oyun, sosial şəbəkə və ya dostlarla ünsiyyətin miqdarında azalmaların olduğu düşünülə bilər.

### Rəqəmsal texnologiyaların istifadəsində məktəb təcrübəsi necədir?

Pandemiyanın başlaması ilə ölkə ərazisindəki təhsil müəssisələrinin bağlanması nəticəsində təhsilin fasiləsizliyinin təmin edilməsi üçün bütün təhsil müəssisələrində tədris prosesi müxtəlif platformalardan istifadə edilərək həyata keçirilmişdir. Daha əvvəl distant təhsil təcrübəsi olmayan təhsil müəssisələrində rəqəmsal texnologiyalardan istifadə təcrübəsini müəyyən etmək üçün şagirdlərə sual ünvanlanmışdır. Şagirdlərin müvafiq suala verdikləri cavablar Qrafik 14-də əks olunmuşdur.




*Qrafik 14. COVID-19-dan əvvəlki dövrdə məktəbin rəqəmsal texnologiyalardan istifadə səviyyəsi*

Qrafik 14-dən göründüyü kimi şagirdlərin təhsil aldıqları məktəbdə pandemiyaya qədərki dövrdə rəqəmsal texnologiyalardan necə istifadə olunmasına dair ünvanlan suallara verilən cavablar təhlil edildiyi zaman 1490 (25,6%) şagird məktəbdə rəqəmsal texnologiyalardan istifadə edilmədiyini qeyd etmişdir. Bundan əlavə, 2433 (41,8%) şagird nadir hallarda məktəbin rəqəmsal texnologiyalardan istifadə etdiyini ifadə etmişdir. 963 (16,6%) şagird isə təhsil aldığı məktəbdə rəqəmsal texnologiyalardan çox vaxt istifadə olunduğunu qeyd etmişdir. Son olaraq 929 (16%) şagird isə oxuduğu məktəbin rəqəmsal texnologiyalardan hər zaman və yüksək keyfiyyətdə istifadə edildiyini bildirmişdir.

Cavablar təhlil edildiyi zaman sorğuda iştirak edən şagirdlərin təxminən 66%-ının pandemiyadan əvvəlki dövrdə təhsil aldıqları məktəblərdə rəqəmsal texnologiyalardan heç zaman və ya nadir hallarda istifadə olunduğunu qeyd etdikləri görünməkdədir. Bu nəticə şagirdlərin oxuduqları məktəblərdə informatika kimi fənlərin tədrisi xaricində rəqəmsal texnologiyalardan çox istifadə edilmədiyi şəklində şərh oluna bilər. Əlavə olaraq, tədqiqatda iştirak edən şagirdlərin təxminən 31%-nin Bakı və Abşeronda yaşadığı nəzərə alındığı zaman texnoloji infrastruktur cəhətdən daha əlverişsiz olan bölgə məktəblərində rəqəmsal texnologiyaların istifadədə məhdudiyyətlərin olduğununu ifadə etmək mümkündür.

Tədqiqatda iştirak edən şagirdlərdən təhsil aldıqları məktəbin pandemiya dövründə onlayn dərslərin təşkili üçün nə dərəcədə şərait yaratdığı ilə əlaqəli sual soruşulmuşdur. Şagirdlərin cavabları Qrafik 15-da göstərilmişdir.




*Qrafik 15. Məktəbdə onlayn dərslərin təşkili vəziyyəti*

Qrafik 15-də göstərilən cavablar təhlil edildiyi zaman, oxuduqları məktəbin onlayn dərslərin təşkili üçün hər şəraiti yaratdığını düşünən şagirdlərin sayının 3581 (61,6%) olduğu, oxuduqları məktəbin onlayn dərslərin təşkili üçün hər şəraiti qismən yaratdığını düşünən şagirdlərin sayının 1667 (28,7%) olduğu və son olaraq oxuduqları məktəbin onlayn dərslərin təşkili üçün hər şəraiti yaratdığı fikrinə "razı deyiləm" deyə cavab verənlərin sayının isə 567 (9,7%) olduğu görünmüşdür. Bu nəticəyə əsasən şagirdlərin təxminən 62%-nin məktəbin onlayn dərslərin təşkili üçün yaratdığı şəraitdən məmnun olduğu ifadə edilə bilər. Təxminən 10% şagird isə məktəbin onlayn dərslərin təşkili üçün heç bir şərait yaratmadığını qeyd etmişdir. Məktəbin yerləşdiyi bölgənin sosial-iqtisadi vəziyyətinin, bölgədəki infrastrukturun, həmçinin məktəb rəhbərlərinin idarəçilik ilə əlaqəli bacarıqlarının böhran vəziyyəti üçün qənaətbəxş olmaması və s. kimi faktorların onlayn dərslərin təşkil olunmasına mənfi yöndə təsir edə biləcəyi ehtimal edilə bilər.

Tədqiqatda şagirdlərdən təhsil aldıqları məktəblərdəki müəllimlərinin rəqəmsal texnologiyalardan istifadə bacarığı hansı səviyyədə olduğu soruşulmuşdur. Şagirdlərin müvafiq suala verdikləri cavablar Qrafik 16-də əks olunmuşdur.




*Qrafik 16. Müəllimlərin rəqəmsal bacarıqlarının səviyyəsi*

Qrafik 16-dən də göründüyü kimi şagirdlərin müəllimlərin rəqəmsal bacarıqlarının səviyyəsi ilə bağlı fikirləri bu şəkildə olmuşdur; 2494 (42,9%) şagird müəllimlərinin rəqəmsal bacarığının "əla" olduğunu, 2168 (37,3%) şagird "yaxşı" olduğunu, 912 (15,7%) şagird "orta" olduğunu, və son olaraq 241 (4,1%) şagird isə "çox aşağı" olduğunu vurğulamışdır. Şagirdlərin cavablarına əsasən, müəllimlərin böyük bir hissəsinin, daha dəqiqliklə ifadə edilərsə 80%-nin rəqəmsal bacarıqlarının yaxşı və əla səviyyədə olduğunu qeyd etmək mümkündür. Bu durum isə müsbət bir hal olaraq qiymətləndirilə bilər.

**Rəqəmsal istifadədə valideyn və müəllim vasitəçiliyi necədir?**

Şagirdlərin valideynlərinin və müəllimlərinin rəqəmsal texnologiyaların istifadəsi ilə əlaqəli onları nə dərəcədə həvəsləndirdiyini müəyyən etmək məqsədi ilə müvafiq mövzuda sual soruluşmuşdur. Şagirdlərin bu suala verdikləri cavab Qrafik 17-də göstərilmişdir.




*Qrafik 17. Müəllim və valideynlərin rəqəmsal texnologiyaların istifadə ilə bağlı şagirdləri həvəsləndirməsi*

Şagirdlərin rəqəmsal texnologiyadan istifadədə müəllimləri və ya valideynləri tərəfindən nə dərəcədə həvəsləndirildiyi ilə əlaqəli soruşulan suala verilən cavablar təhlil edildiyi zaman 2043 (35,1%) şagird, valideyn və müəllimlərin onları rəqəmsal texnologiyaların istifadəsi ilə əlaqəli “hər zaman” həvəsləndirdiyini, 1101 (18,9%) şagird “çox vaxt” həvəsləndirildiyini, 1062 (18,3%) şagird “bəzən” həvəsləndirildiyini, 570 (9,8%) şagird “nadir hallarda” həvəsləndirildiyini qeyd etmişdir. Son olaraq 1039 (17,9%) şagird isə “heç zaman” cavabını verməklə müəllim və valideynlərinin onları rəqəmsal texnologiyaların istifadəsi ilə əlaqəli həvəsləndirmədiyini bildirmişdir.

Bu nəticə isə özülüyündə təxminən 28% şagirdin rəqəmsal texnologiyalardan istifadədə müəllimləri və ya valideynləri tərəfindən yetəri qədər həvəsləndirilmədiyi şəklində şərh oluna bilər. Valideynlərin və ya müəllimlərin rəqəmsal bacarıqlarının qənaətbəxş səviyyədə olmaması, şagirdləri həvəsləndirmək üçün motivasiyasiyalarının arzu olunan səviyyədə olmaması, vaxt mövzusundakı müxtəlif məhdudiyyətlərin bu nəticəyə təsir edə biləcək faktorlar ola biləcəyi ehtimal edilə bilər. 54% şagirdin rəqəmsal texnologiyalardan istifadə üçün müəllimləri və ya valideynləri tərəfindən həvəsləndirildiyini qeyd etməsi isə müsbət bir hal olaraq qiymətləndirilə bilər.

**Həddindən artıq internet istifadəsi problemi mövcuddurmu?**

Pandemiya dövründə təhsil müəssisələrinin bağlanması və təlim-tədris prosesinin rəqəmsal texnologiyalar vasitəsilə məsafədən həyata keçirilməsi şagirdlərin məktəblə əlaqəli bütün fəaliyyətlərinin virtual aləmdə həyata keçirilməsinə səbəb olmuşdur. Dərslərdə iştirak və müəllimlə və dostları ilə ünsiyyət yalnız onlayn platformalar istifadə etməklə mümkün olmuşdur. Bu isə özlüyündə şagirdlərin təkcə təhsillə əlaqəli fəaliyyətlərinin deyil, həm də həmyaşıdları və digərləri ilə də ünsiyyətin bu formada həyata keçirilməsi məcburiyyətini gətirmişdir. İstər dərslə əlaqəli, istərsə də digər fəaliyyətlər üçün rəqəmsal texnologiyaların istifadəsi şagirdlərin pandemiyadan əvvəlki dövr ilə müqayisədə pandemiya dövründə daha çox internet istifadə etdiyini göstərmişdir.

Pandemiyanın başlaması ilə birlikdə qısa bir müddətdə həyatın axış şəklinin dəyişməsi və bir çox öhdəçiliyin virtual mühitdə həyata keçirilməsinin şagirdlərin internetdən istifadə miqdarına təsir edəcəyi təxmin edilmişdir. Mövcud vəziyyəti təhlil etmək məqsədilə şagirdlərə suallar ünvanlanmışdır. Belə ki, internetdən istifadə miqdarını və internetə/virtual həyata dair asılılığı müəyyən etmək üçün şagirdlərdən “Yanımda elektron cihazlar (telefon, planşet, kompüter və s.) olmadığı zaman özümü pis hiss edirəm” sualına münasibət bildirmələri istənmişdir. Bu suala verilən cavablar Qrafik 18-də göstərilmişdir.




*Qrafik 18.İnternet istifadəsinin vəziyyəti*

Cavablar təhlil edildiyi zaman, 2681 (46,1%) şagird yanında elektron cihaz olmadığı zaman özünü pis hiss etmədiyini, 1093 (18,8%) şagird nadir hallarda pis hiss etdiyini, 1284 (22,1%) şagird bəzən pis hiss etdiyini, 386 (6,6%) şagird çox vaxt pis hiss etdiyini və son olaraq 371 (6,4%) şagird isə elektron cihazlar yanında olmadığı zaman hər zaman özünü pis hiss etdiyini bildirmişdir. Tədqiqatda iştirak edən şagirdlərin 13%-i elektron cihazların yanında olmadığı zamanlarda özünü pis hiss etdiyini vurğulamışdır. Şagirdlərin böyük bir hissəsinin, daha dəqiq ifadə edilərsə, təxminən 65%-nin elektron cihazların yanlarında olmadığı zamanlarda özlərini pis hiss etməməsi halı onların rəqəmsal texnologiyalardan asılılığının olmaması şəklində qiymətləndirilə bilər.

Mövzu ilə əlaqəli bir digər sual isə şagirdlərin internet əlaqəsi olmadığı zaman / oflayn olduğu zaman özlərini gücsüz hiss edib-etmədiyini müəyyən etmək olmuşdur. Şagirdlərin cavabları Qrafik 19-da əks olunmuşdur.




*Qrafik 19. İnternet istifadəsinin vəziyyəti*

Bu suala verilən cavablar təhlil edildiyi zaman 3352 (57,6%) şagird internet bağlantısı olmadığı zaman özünü gücsüz hiss etmədiyini, 795(13,7%) şagird nadir hallarda özünü gücsüz hiss etdiyini, 1008 (17,3%) şagird bəzən özünü pis hiss etdiyini, 354 (6,1%) şagird çox vaxt özünü pis hiss etdiyini və 306 (5,3%) şagird isə hər zaman özünü pis hiss etdiyini qeyd etmişdir. Beləliklə, şagirdlərin təxminən 71%-nin internetdən istifadə etmədikləri zamanlarda psixoloji olaraq özlərini pis hiss etmədiyi ifadə edilə bilər.  Əlavə olaraq, 11%-dən çox şagirdin internet istifadə etmədiyi zaman özünü pis hiss etməsi şagirdlərdə texnologiya aludəçiliyinin bir göstəricisi olaraq qiymətləndirilə bilər.

**Yaşıdları və dostları ilə münasibətlər onlayn platforma üzərindən hansı dərəcədə qurulur?**

Şagirdlərin həmyaşıdları və dostları ilə münasibətlərin onlayn platformalar üzərində hansı dərəcədə qurulduğunu müəyyən etmək məqsədi ilə sual ünvanlanmışdır. Şagirdlərin bu suala verdikləri cavablar Qrafik 20-də göstərilmişdir.



*Qrafik 20. Yaşıdları/dostları ilə onlayn platformalar üzərində qurulan münasibətlər*

Şagirdlərin cavabları təhlil edildiyi zaman 3372 (58%) şagird həmyaşıdları və dostları ilə gündə "1 saata qədər" zaman keçirdiyini, 1733 (29,8%) şagird "1-3 saat" zaman keçirdiyini, 553 (9,5%) şagird "4-6 saat" zaman keçirdiyini və 157 (2,7%) şagird isə gündə "6 saatdan" çox vaxt keçirdiyi qeyd etmişdir. Bu isə sorğuda iştirak edən şagirdlərin 12%-dən çoxunun həmyaşıdları və dostları ilə gün ərzində virtual aləmdə dörd saatdan çox vaxt keçirdiyini göstərmişdir.

**Sosial şəbəkə səhifələrinin və video oyun platformalarının istifadəsi hansı vəziyyətdədir?**

Şagirdlərdən rəqəmsal texnologiyalardan (kompüter, smartfon) daha çox nə üçün istifadə etdikləri ilə əlaqəli sual soruşulmuşdur. Şagirdlərin müvafiq sualla bağlı cavabları Qrafik 21-də göstərilmişdir.




*Qrafik 21. Rəqəmsal texnologiyalardan istifadə məqsədləri*

Qrafik 21-dən də göründüyü kimi şagirdlərin rəqəmsal texnologiyalardan hansı məqsədlə istifadə edildiyinə dair cavablarda "dərslərim üçün" cavabı ən yüksək faizlə ilk sırada yer almışdır. Belə ki, sorğuda iştirak edən şagirdlərin 5491-i (94,4%) rəqəmsal texnologiyalardan dərs məqsədi ilə istifadə etdiyini qeyd etmişdir. Əlavə olaraq, 172 (3%) şagird sosial şəbəkələr üçün, 101 (1,7%) şagird oyun məqsədi ilə və 51 (0,9%) şagird isə dostları ilə söhbət/ünsiyyət üçün rəqəmsal texnologiyalardan istifadə etdiyini qeyd etmişdir. Təhsil prosesinin məsafədən təşkil olunduğu bir dövrdə şagirdlərin böyük bir qisminin rəqəmsal texnologiyalardan dərsləri üçün istifadə etməsi təbii bir hal olaraq qiymətləndirilə bilər.

Araşdırmada şagirdlərin sosial şəbəkələrdən və video oyun platformalarından nə qədər istifadə etdiyini müəyyən etmək məqsədi ilə də müvafiq mövzu ilə əlaqəli sual ünvanlanmışdır. Şagirdlərin bu suala verdikləri cavablar Qrafik 22-də qeyd olunmuşdur.




*Qrafik 22. Gün ərzində sosial şəbəkələrdə və oyun platformalarında keçirilən zaman*

Şagirdlərdən gün ərzində sosial şəbəkələrdə və oyun platformalarında nə qədər zaman keçirdikləri sualına verilən cavablar analiz edildiyi zaman, 3689 (63,4%) şagird sosial şəbəkələrdə və oyun platformalarında gündə “1 saata qədər” zaman keçirdiyini, 1524 (26,2%) şagird “1-3 saat” zaman keçirdiyini, 395 (6,8%) şagird “4-6 saat” zaman keçirdiyini və 207 (3,6%) şagird isə gündə “6 saatdan” çox vaxt keçirdiyini qeyd etmişdir. Bu isə təxminən 10% şagirdin gün ərzində sosial şəbəkələrdə və oyun platformalarında dörd saatdan artıq vaxt keçirdiyini göstərmişdir.

**Kiber zorbalıq**

Pandemiya dövründə istər təhsil prosesinin, istərsə də şagirdlərin sinif yoldaşları/dostları/həmyaşıdları ilə ünsiyyət prosesinin rəqəmsal texnologiyalar istifadə edilərək həyata keçirildiyi qeyd edilə bilər. Şagirdlərin günlük fəaliyyətlərinin bir hissəsini virtual aləmdə həyata keçirməsi, real həyatdan tanıdığı və ya tanımadığı insanlarla zaman keçirməsi, oyun oynaması, söhbət etməsi kimi hallarının mövcudluğu nəzərə alındığı zaman onların kiber zorakılıq halları ilə qarşılaşma və eyni zamanda kiber zorakılığı əks etdirən davranışlar nümayiş etdirmə ehtimalını verir. Virtual həyatda başqaları ilə mesajlaşmalar, internet forumlarındakı mövzulara münasibət bildirmək və ya müxtəlif onlayn videooyunlar kiber zorakılıq üçün əsas mənbələr olaraq ifadə edilə bilər.

Ümumiyyətlə texnologiyanın inkişafı ilə birlikdə kiber zorakılığın artığı ifadə oluna bilər. Beynəlxalq Şagird Qiymətləndirmə Proqramından (PİSA) əldə olunan məlumatlar, kiber zorbalığı ənənəvi zorbalıqdan hələ ki fərqləndirməsə də, araşdırmalar qızların oğlanlarla müqayisədə bu formadakı zorbalığa həm qurban, həm də günahkar olaraq çox meylli olduğunu göstərir (OECD, 2019).

Dünya İqtisadiyyat Forumunun təqdim etdiyi məlumatlara əsasən, pandemiya dövründə evə qapanmalar nəticəsində dünyanın bəzi bölgələrində internetin istifadəsi təxminən 50%-ə qədər artmışdır. Təhsil müəssisələrinin bağlanması və təhsil prosesinin məsafədən təşkil olunması nəticəsində uşaqlar və şagirdlər dərs oxumaq, sosiallaşmaq və ya oyun oynamaq üçün

rəqəmsal texnologiyalardan istifadə edirlər və zamanlarının müəyyən bir hissəsini onlayn olmaqla keçirirlər.

Sonuncu PISA (2018) anketinin nəticələri, orta hesabla hər 10 şagirddən 9-nun ev tapşırıqlarını həll etmək üçün evində kompüterin və internetə çıxışının olduğunu göstərmişdir. Onlayn materiallar öyrənmə fürsətləri üçün əhəmiyyətli olmağına baxmayaraq, virtual dünya həm də uşaq və gənclər üçün təhlükələri ifadə edir.

OECD (2019) tərəfindən hazırlanan “How’s Life in the Digital Age?” (Rəqəmsal Əsrdə Həyat necədir?) adlı hesabatda, pandemiyadan əvvəlki dövrdə toplanan məlumat əsasında OECD ölkələrində orta hesabla 15 yaşlı uşaqların 9%-nin həyatlarında ən az bir dəfə kiber zorakılıq yaşadıqları və oğlanlarla müqayisədə qızların daha çoxunun bu prosesin qurbanı olduğu qeyd edilmişdir. Pandemiya səbəbi ilə evə qapanmalar nəticəsində bu rəqəmin daha da artacağı təxmin edilmişdir.

Aparılan bu araşdırmada şagirdlərin nə dərəcədə kiber zorakılığa meylli olduğu və kiber zorakılığa məruz qaldığını müəyyən etmək üçün mövzu ilə əlaqəli müvafiq suallar ünvanlanmışdır. Belə ki, şagirdlərin nə dərəcədə kiber zorbalığa məruz qaldığını öyrənmək üçün onlardan virtual mühitdə hər hansı bir kobudluq halı ilə qarşılaşıb-qarşılaşmadığına dair sual soruşulmuşdur. Şagirdlərin müvafiq suala verdikləri cavablar Qrafik 23-də göstərilmişdir.




*Qrafik 23. Kiber zorakılıqla qarşılaşma vəziyyəti*

Qrafik 23-dən göründüyü kimi şagirdlərin onlayn mühitdə başqa biri tərəfindən onlara qarşı kobudluq edib-etmədiyi soruşulmuşdur. Verilən cavablar təhlil edildiyi zaman, 4229 (72,7%) şagird bu suala “heç vaxt” cavabını qeyd edərək kiber zorakılığa məruz qalmadığını ifadə etmişdir. Həmçinin, 763 (13,1%) şagird “nadir hallarda” kiber zorakılığa məruz qaldığını, 666 (11,5%) şagird bu halların “bəzən” yaşandığını, 90 (1,5%) şagird “çox vaxt” yaşandığını və son olaraq 67 (1,2%) şagird isə “hər zaman yaşandığını” qeyd etmişdir. Bu nəticəyə əsasən şagirdlərin təxminən 73%-nin hər hansı bir kiber zorakılığa məruz qalmadığını qeyd etmək

mümkündür. 17% şagirdin isə ən azından nadir hallarda olsa belə kiber zorakılıq ilə qarşılaşdığı ifadə edilə bilər.

Sorğuda iştirak edən şagirdlərə kiber zorakılıq ilə əlaqəli ünvanlanan bir digər sual isə virtual həyatda dostlarının və ya digər insanların ona bəyənmədiyi/xoşagəlməz mesajlar göndərib-göndərmədiyi ilə əlaqəli sual olmuşdur. Bu suala şagirdlərin verdikləri cavablar Qrafik 24-də göstərilmişdir.




*Qrafik 24. Kiber zorakılıqla qarşılaşma vəziyyəti*

Şagirdlərin cavabları analiz edildiyi zaman 4399 şagird (75,6%) "heç vaxt" belə bir halın yaşanmadığını, 702 (12,1%) şagird "nadir hallarda" yaşandığını, 520 (8,9%) şagird "bəzən yaşandığını", 115 (2%) şagird "çox vaxt" yaşandığını və 79 (1,4%) şagird isə "hər zaman" yaşandığını ifadə etmişdir. Əldə olunan nəticələr ümumiləşdirildiyi zaman şagirdlərin təxminən 24%-nin bu təcrübə ilə qarşılaşdığı, dostlarının və ya tanımadığı insanların onlara xoşagəlməz mesajlar göndərdiyi ifadə edilə bilər.

Həmçinin, şagirdlərdən başqa insanların və ya dostlarının onların internetə yüklədiyi şəkillərini şagirdin icazəsi/xəbəri olmadan fərqli saytlarda paylaşıb-paylaşılmadığı sorulmuşdur. Müvafiq suala şagirdlərin verdikləri cavablar Qrafik 25-də göstərilmişdir.




*Qrafik 25. Kiber zorakılıq ilə qarşılaşma vəziyyəti*

Şagirdlərin bu suala verdikləri cavablar qiymətləndirildiyi zaman, 5386 (92,6%) şagird heç vaxt belə bir halla qarşılaşmadığını, 204 (3,5%) şagird nadir hallarda qarşılaşdığını, 151 (2,6%) şagird bəzən qarşılaşdığını, 35 (0,6%) şagird çox vaxt belə halla qarşılaşdığını və 39 (0,7%) şagird isə hər zaman belə bir halla qarşılaşdığını qeyd etmişdir.  Bu cavablar qiymətləndirildiyi zaman şagirdlərin təxminən 93%-nin heç bir zaman belə bir halla qarşılaşmadığı, 7%-nin isə ən az bir dəfə belə bir halla qarşılaşdığı ifadə edilə bilər.

Şagirdlərin virtual mühitdə başqalarına qarşı kiber zorakılıq istifadə edib-etmədiyini müəyyən etmək üçün də mövzu ilə əlaqəli suallar ünvanlanmışdır. Belə ki, şagirdlərin virtual mühitdə başqalarına qaşı kobudluq edib-etmədiyinə dair suala verdikləri cavablar Qrafik 26-da əks olunmuşdur.




Qrafik 26. Kiber zorakılığa meyillilik vəziyyəti

Şagirdlərin onlayn mühitdə başqalarına qarşı kobudluq edib-etməməsi ilə əlaqəli suala verdikləri cavablar analiz edildiyi zaman 5481 şagird (94,2%) başqalarına qarşı heç vaxt kobudluq etmədiyini qeyd etmişdir. Həmçinin, 203 şagird (3,5%) nadir hallarda bunu etdiyini, 98 şagird (1,7%) bəzən bunu etdiyini, 16 şagird (0,3%) çox vaxt və 17 (0,3%) şagird isə hər zaman bunu etdiyini bildirmişdir. Bu nəticə şagirdlərin 94%-nin kiber zorakılıq etmədiyini və 6%-nin isə kiber zorakılıq etməyə meyilli olduğunu göstərmişdir.

Şagirdlərin virtual aləmdə başqalarına qarşı kiber zorakılıq etməyə nə qədər meyilli olduğunu müəyyən etmək üçün mövzu ilə əlaqəli ünvanlanan bir başqa sual isə dostlarının şifrələrindən və şəxsi məlumatlarından, onlardan, yəni dostlarından xəbərsiz internetdə istifadə edib-etmədiyi ilə əlaqəli olmuşdur. Bu suala şagirdlərin verdikləri cavablar Qrafik 27-də göstərilmişdir.




*Qrafik 27. Kiber zorakılığa meyillilik vəziyyəti*

Bu suala verilən cavablar təhlil edildiyi zaman, 5602 şagird (96,3%) heç vaxt bunu etmədiyini, 93 şagird (1,6%) nadir hallarda etdiyini, 75 şagird (1,3%) bəzən etdiyini, 18 şagird (0,3%) çox vaxt etdiyini və son olaraq 27 şagird 0,5(%) isə hər zaman dostlarının şifrələrindən və şəxsi məlumatlarından onlardan xəbərsiz olaraq istifadə etdiyini qeyd etmişdir. Bu cavablar qiymətləndirildiyi zaman, şagirdlərin təxminən 4%-ə yaxınının dostları ilə münasibətdə kiber zorakılıq etdiyi qeyd edilə bilər.

Şagirdlərdən virtual həyatada şəxsən tanımadığı insanlara qarşı kiber zorakılıq edib-etmədiyini müəyyən etmək üçün tanımadıqları adamların şəxsi məlumatlarından istifadə edib-etmədikləri soruşulmuşdur. Bu suala verilən cavablar Qrafik 28-də əks olunmuşdur.




*Qrafik 28. Kiber zorakılığa meyillilik vəziyyəti*

Şagirdlərin tanımadıqları insanların şəxsi məlumatlarından nə dərəcədə istifadə etdiyi ilə əlaqəli ünvanlanan suala verdikləri cavablara əsasən, 5541 şagird (95,3%) heç vaxt şəxsən tanımadığı insanların şəxsi məlumatlarından istifadə etmədiyini qeyd etmişdir. 123 şagird (2,1%) isə nadir hallarda istifadə etdiyini bildirmişdir. 90 şagird (1,6%) bəzən istifadə etdiyini, 26 şagird (0,4%) çox vaxt istifadə etdiyini, 35 şagird (0,6%) isə hər zaman istifadə etdiyini bildirmişdir. Cavablar ümumi olaraq qiymətləndirildiyi zaman təxminən 95% şagirdin tanımadıqları insanların şəxsi məlumatlarından istifadə etmədiyi, 5% şagirdin isə bunu ən az bir dəfə etdiyi qeyd edilə bilər.

Şagirdlərin başqalarına qarşı kiber zorakılıq edib-etməməsini müəyyən etmək üçün ünvanlanan suallardan bir digəri də "İnternetdə/virtual aləmdə tanımadığınız insanlarla söhbət/müzakirə edirsinizmi" sualı olmuşdur. Bu suala şagirdlərin verdikləri cavablar Qrafik 29-da qeyd olunmuşdur.




*Qrafik 29. Kiber zorakılıq vəziyyəti*

Şagirdlərin müvafiq suala verdikləri cavablar qiymətləndirildiyi zaman, 3939 şagird (67,7%) tanımadığı insanlarla virtual aləmdə söhbət etmədiyini, 848 şagird (14,6%) nadir hallarda etdiyini, 785 şagird (13,5%) bəzən söhbət etdiyini, 161 şagird (2,8%) çox vaxt söhbət etdiyini və 82 şagird (1,4%) isə hər zaman söhbət etdiyini qeyd edilmişdir. Cavablar ümumi olaraq qiymətləndirildiyi zaman təxminən 32% şagirdin virtual aləmdə tanımadıqları insanlarla ən az bir neçə dəfə müzakirə/söhbət etdiyi ifadə edilə bilər.

Şagirdlərin realda tanımadığı insanlarla virtual həyatda dostluq edib-etmədiyini müəyyən etmək üçün ünvanlanan suala verdikləri cavablar Qrafik 30-da əks olunmuşdur.




*Qrafik 30. Kiber zorakılıq vəziyyəti*

“Realda tanımadığınız insanlarla virtual aləmdə dostluq edirsinizmi” sualına isə şagirdlərin verdikləri cavabların tezliyi aşağıdakı kimi olmuşdur; 3871 şagird (66,6%) tanımadığı insanlarla virtual aləmdə heç vaxt dostluq etmədiyini, 811 şagird (13,9%) tanımadığı insanlarla virtual aləmdə nadir hallarda dostluq etdiyini, 824 şagird (14,2%) tanımadığı insanlarla virtual aləmdə bəzən dostluq etdiyini, 188 şagird (3,2%) tanımadığı insanlarla virtual aləmdə çox vaxt dostluq etdiyini və son olaraq 121 şagird (2,1%) isə tanımadığı insanlarla virtual aləmdə hər zaman dostluq etdiyini bildirmişdir.

Şagirdlərin cavabları qiymətləndirildiyi zaman sorğuda iştirak edən şagirdlərin təxminən 33%-nin real həyatda tanımadıqları insanlarla virtual həyatda dostluq münasibətləri qurduğu ifadə edilə bilər.

Şagirdlərdən internet istifadə edərkən hər hansı bir narahatedici vəziyyətlə qarşılaşdıqları zaman bunu ailə üzvləri və ya dostları ilə paylaşıb-paylaşmadıqları soruşulmuşdur. Bu suala verilən cavablar Qrafik 31-də göstərilmişdir.




*Qrafik 31. Kiber zorakılıq vəziyyəti*

Bu suala verilən cavablar təhlil edildiyi zaman, 1284 şagirdin (22,1%) internetdə narahatedici bir vəziyyətlə qarşılaşdığı zaman bunu ailə üzvlərinə və ya dostlarına heç vaxt bildirmədiyi, 808 şagirdin (13,9%) nadir hallarda dostları və ya ailə üzvləri ilə paylaşdığı, 1155 şagirdin (19,9%) bəzən paylaşdığı, 692 şagirdin (11,9%) çox vaxt paylaşdığı və son olaraq 1876 şagirdin (32,2%) isə hər zaman bunu ailəsi və ya dostları ilə paylaşdığı görünmüşdür. Cavablar qiymətləndirildiyi zaman şagirdlərin ən az 22%-nin internetdə narahatedici bir situasiya ilə, yəni kiber zorakılıq ilə qarşılaşdığı zaman bu vəziyyəti heç kimlə paylaşmadığı ifadə edilə bilər. İnternetdən istifadənin artması ilə birlikdə ortaya çıxan bu kimi risklər məktəblilərin həm duyğusal, həm də davranışla bağlı problemlərinin ortaya çıxmasına səbəb ola bilər.

## NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən ümumtəhsil məktəblərində təhsil alan 9-17 yaşlı 5815 şagirdin iştirakı ilə həyata keçirilən bu araşdırmada şagirdlərə on fərqli kateqoriya üzrə ümumilikdə 27 sual ünvanlanmışdır. Şagirdlər tərəfindən müvafiq suallara verilən cavablar təhlil edilərək şərh edilmişdir. Bu bölmədə araşdırma sonunda əldə olunan nəticələrə əsaslanaraq tövsiyələr hazırlanmış və aşağıda təqdim edilmişdir.

Tədqiqatda iştirak edən 5815 şagirddən 4615-nin (79,4%) evində geniş zolaqlı internet şəbəkəsindən istifadə edildiyi, 1200 şagirdin isə (20,6%) mobil telefonlar üçün təklif olunan internet paketlərindən istifadə edərək onlayn təhsil prosesinə qoşulduğu müəyyən olunmuşdur. Təhsil prosesinə qoşulmaq üçün şagirdlər müxtəlif platformalardan istifadə edirlər. Məsələn, "Microsof Teams" platformasında bir saat müddətində video və audiodan istifadə edilərək təşkil olunan video-zəng və iclaslar üçün təxminən 2,7 GB internet xərcləndiyi qeyd edilir (Griffith University, 2020). Mobil internet paketlərinin istifadəsi üçün tələb olunan ödəniş və internet limiti nəzərə alındığı zaman xüsusən sosial-iqtisadi cəhətdən daha əlverişsiz olan ailələrdə və ya çoxuşaqlı ailələrdə internetdən istifadə ilə əlaqəli ciddi məhdudiyyətlərin olacağı ehtimal olunur. Bu çərçivədə bütün şagirdlərin, xüsusilə əlverişsiz qruplara aid olan şagirdlərin təhsilə əlçatanlığının təmin edilməsi üçün pulsuz internet xidmətlərinin təşkil edilməsinə ehtiyac olduğu ifadə edilə bilər.

Tədqiqatda iştirak edən şagirdlərin 22,5%-i internetin keyfiyyətindən qətiyyən məmnun olmadığını qeyd etmişdir. Azərbaycanda istər geniş zolaqlı internetin sürətinin, istərsə də mobil internet sürətinin qlobal internet sürətlərindən aşağı olduğu müəyyən olmuşdur. Belə ki, 2020-ci ilin noyabr ayına aid olan qlobal internet sürətləri ilə bağlı statistikalara nəzər yetirildiyi zaman təhlil edildiyi zaman Azərbaycanın istər mobil (31.45 mbps), istərsə də sabit geniş zolaqlı (23.04 mbps) internetə qoşulma sürətinin dünya ortalamasından (45.69/91.96 mbps) daha aşağı olduğu müəyyən edilmişdir (OOKLA, 2020). Bu isə internetə çıxışda məhdudiyyətlərin yaranmasını təsdiq edə biləcək bir fakt olaraq qiymətləndirilmişdir. Bu çərçivədə infrastrukturun təkmilləşdirilməsi istiqamətində işlərin aparılmasına ehtiyac olduğu qeyd edilə bilər.

Tədqiqatda iştirak edən şagirdlərin 5656-nın (97,3%) ailəsində ən çox istifadə olunan cihazın telefon olduğunu görünmüşdür. Həmçinin şagirdlərin təxminən yarısının ailələrində elektron cihazların sayının işləyən və ya şagird/tələbə olan şəxslərin sayından az olduğu müəyyən olunmuşdur. Bu çərçivədə, xüsusilə sosial-iqtisadi cəhətdən daha əlverişsiz vəziyyətdə olan və ailədəki məktəbli/tələbə sayı çox olan ailələrin müəyyənləşdirilməsi və elektron cihazlarla təmin edilməsi istiqamətində dövlət siyasətinin həyata keçirilməsinin (məsələn, "bir şagird bir kompüter") faydalı ola biləcəyi ifadə edilə bilər.

Tədqiqatda iştirak edən şagirdlərin təxminən 56%-nın ehtiyac duyduğu məlumatı internetdən əldə etmək bacarığının olduğu aşkar edilmişdir. 10% şagirdin isə lazımlı olduğunu düşündüyü məlumatları əldə etmək üçün rəqəmsal bacarıqlarının olmadığı və ya qənaətbəxş olmadığı görünmüşdür. Ümumiyyətlə rəqəmsal savadlılıq fərqli texnologiyalardan düzgün istifadə edilə bilmək üçün doğru məlumata çatmaq, istehsal etmək və bölüşmək və öyrənmə-tədris prosesində texnologiyadan istifadə etmək bacarıqlarına sahib olmağı tələb edən bir anlayış olaraq ifadə edilir (Hamutoğlu və digərləri, 2017). Yəni, rəqəmsal savadlılıq onlayn mühitdə doğru məlumatı əldə etmə, təşkil etmə, effektiv və tənqidi bir şəkildə qiymətləndirmə, məlumatı təqdim etmə kimi xüsusiyyətləri də özündə ehtiva edir. Bu çərçivədə uşaqlar sadəcə istifadə etdikləri texnologiyaları anlamaqla qalmamalı, həm də onu etibarlı və effektiv bir şəkildə istifadə edə bilməlidirlər. Yəni, istifadə edilən texnologiya və texnologiyaya aid detalları

mənimsəməlidirlər. Eshet-Alkalai (2004: 93) rəqəmsal savadlılığı “rəqəmsal əsrdə həyatda qalmaq bacarığı” olaraq ifadə edir. Rəqəmsal savadlılığı ifadə edən bu düşüncə, anlayışın müasir dövrdə nə qədər böyük əhəmiyyət kəsb etdiyini göstərir. Bu düşüncədən hərəkətlə, həm ailədə, həm də təhsil müəssisələrində şagirdlərin rəqəmsal savadlılığının artırılması istiqamətində proqramlar həyata keçirilməsi tövsiyə oluna bilər.

Tədqiqatda iştirak edən məktəblilərin COVID-19-dan əvvəl və COVID-19 dövründə rəqəmsal texnologiyalardan istifadə məqsədlərinə dair suallara verdikləri cavablar müqayisə edildiyi zaman, rəqəmsal texnologiyalardan dərs tapşırıqlarının yerinə yetirilməsində istifadə miqdarının artdığı müşahidə olunmuşdur. COVID-19 pandemiyasından əvvəl 2993 (51,5%) şagird rəqəmsal texnologiyalardan dərs tapşırıqlarının yerinə yetirilməsi üçün istifadə etdiyini qeyd etdiyi halda, COVID-19 dövründə dərs tapşırıqlarının icrası üçün rəqəmsal texnologiyalardan istifadə edən şagirdlərinin sayının 4419 (76%) olduğu qeyd olunmuşdur. Təhsillə bağlı bütün fəaliyyətlərin rəqəmsal texnologiyalardan istifadə edərək həyata keçirildiyi nəzərə alındığı zaman mövcud nəticənin əldə edilməsi təbii bir hal olaraq qiymətləndirilə bilər.

Əlavə olaraq COVID-19-dan öncəki rəqəmlər ilə müqayisədə COVID-19 dövründə şagirdlərin oyun, sosial şəbəkələr və dostlarla söhbət üçün rəqəmsal texnologiyalardan istifadə miqdarlarında azalmaların olduğu görünmüşdür. Bu nəticəyə müxtəlif faktorların təsir edə biləcəyi mümkündür. Məsələn, geniş zolaqlı internet növündən istifadə etmə imkanları olmayan ailələrdə internetə çıxışdakı məhdudiyyətlər, valideynlər tərəfindən xüsusilə daha azyaşlı məktəblilərin rəqəmsal texnologiyalardan istifadə miqdarına qoyulan məhdudiyyətlər və ya şagirdlərin təhsillə əlaqəli fəaliyyətlər üçün rəqəmsal texnologiyalardan əvvəlki ilə müqayisədə daha çox istifadə etmələri və həddindən çox istifadə nəticəsində rəqəmsal tükənmişlik yaşama halları kimi səbəblərdən qaynaqlı olaraq virtual dünyada oyun, sosial şəbəkə və ya dostlarla ünsiyyətin miqdarında müşahidə olunan azalmaların səbəbləri kimi düşünülə bilər.

Sorğuda iştirak edən şagirdlərin təxminən 66%-nın pandemiyadan əvvəlki dövrdə təhsil aldıqları məktəblərdə rəqəmsal texnologiyalardan heç zaman və ya nadir hallarda istifadə olunduğunu qeyd etdikləri görünmüşdür. Bu nəticə şagirdlərin oxuduqları məktəblərdə informatika kimi fənlərin tədrisi xaricində rəqəmsal texnologiyalardan çox istifadə edilmədiyi şəklində şərh oluna bilər. Həmçinin tədqiqatda iştirak edən şagirdlərin təxminən 31%-nin paytaxt Bakı və Abşeron ərazisində yaşadığı nəzərə alındığı zaman texnoloji infrastruktur cəhətdən daha əlverişsiz olan bölgə məktəblərində rəqəmsal texnologiyaların istifadədə daha çox məhdudiyyətlərin ola biləcəyini ifadə etmək mümkündür. Bu çərçivədə xüsusən bölgələrdə infrastrukturun gücləndirilməsi sahəsində dövlət dəstəyinin aparılmasının önəmli olduğu qeyd edilə bilər.

Sorğuda iştirak edən şagirdlərin 62%-ə yaxını təhsil aldıqları məktəbin məktəbin onlayn dərslərin təşkili üçün yaratdığı şəraitdən məmnun olduğunu qeyd etmişdir. Təxminən 10% şagird isə məktəbin onlayn dərslərin təşkili üçün heç bir şərait yaratmadığını ifadə etmişdir. Şagirdlərin təhsil aldıqları məktəblərin yerləşdiyi bölgələrin sosial-iqtisadi vəziyyətinin, bölgədəki infrastrukturun, həmçinin məktəb rəhbərlərinin idarəçilik ilə əlaqəli bacarıqlarının böhran vəziyyəti üçün qənaətbəxş olmaması və s. kimi faktorların onlayn dərslərin təşkil olunmasına mənfi yöndə təsir edə biləcəyi ehtimal edilə bilər. Bu çərçivədə infrastrukturun təkmilləşdirilməsinin və eyni zamanda təhsil idarəçilərin böhran dövründə idarəetmə fəaliyyətləri ilə əlaqəli bilik və bacarıqlarının inkişaf etdirilməsinin faydalı olacağı ehtimal edilməkdədir.

Sorğuda iştirak edən şagirdlərin cavablarına əsasən təhsil aldıqları məktəbdəki müəllimlərinin böyük bir hissəsinin, daha dəqiqliklə ifadə edilərsə 80%-nin rəqəmsal bacarıqlarının yaxşı və

əla səviyyədə olduğunu qeyd etmək mümkündür. Bu durum müsbət bir hal olaraq qiymətləndirilə bilər. Eyni zamanda təxminən 4% şagird müəllimlərinin rəqəmsal bacarıqlarının çox aşağı səviyyədə olduğunu ifadə etmişdir. Gənc nəsillər olaraq ifadə edilən məktəblilər gündəlik həyatlarında hər hansı bir məlumat axtardığı zaman, ünsiyyət qurarkən, və ya öyrənərkən rəqəmsal texnologiyalardan asan bir şəkildə istifadə edə bilir və lazımlı olan bütün məlumatlara, bacarıq və anlayışlara sahib olma bilmək üçün doğru formada dəstək almağa ehtiyac duyur. Bu işdə şagirdlərə lazım olan dəstəyin təmin edilməsində müəllimlərin əvəzsiz rol oynadığı qeyd edilə bilər. Bunun üçün müəllimlər şagirdlərə sadəcə rəqəmsal dünyada məlumatların əldə edilməsini deyil, eyni zamanda əldə edilən məlumatların keyfiyyətini və etibarlılığını müəyyən etməyə də dəstək olmalıdırlar. Elm və texnologiyanın sürətli inkişafı müəllimlərin "mütəxəssis" olaraq qəbul edən paradiqmasını dəyişdirmişdir. Günümüzdə müəllimlərin öyrətməkdən əlavə həm də öyrənən qismində də iştirakçı olmalı olduqları ifadə edilə bilər. Bir çox müəllim üçün bu düşüncəni qəbul etmək çətin ola bilər, lakin 21-ci əsr bacarıqlarından biri olan rəqəmsal savadlılığın hər bir təhsil işçisinin bilməsi zəruri olan bacarıqlar olduğu yaddan çıxarılmamalıdır. Müəllimlərin rəqəmsal savadlılığının təkmilləşdirilməsi üçün onların mövzu ilə əlaqəli təkmilləşmə kurslarına/ seminarlarına/ təlimlərinə cəlb olunmasının faydalı olacağı düşünülməkdədir.

Sorğuda iştirak edən şagirdlərin təxminən 54%-i rəqəmsal texnologiyalardan istifadə üçün müəllimləri və ya valideynləri tərəfindən həvəsləndirildiyini, 28%-i isə şagirdin rəqəmsal texnologiyalardan istifadədə müəllimləri və ya valideynləri tərəfindən yetəri qədər həvəsləndirilmədiyini qeyd etmişdir. Şagirdlərin valideynlərinin və ya müəllimlərin rəqəmsal bacarıqlarının qənaətbəxş səviyyədə olmaması, şagirdləri həvəsləndirmək üçün lazımi səviyyədə motivasiyalarının olmaması, xüsusən valideynlərin vaxt mövzusundakı məhdudiyyətləri kimi müxtəlif faktorların bu nəticəyə təsir edə biləcəyi ifadə edilə bilər. Ona görə də rəqəmsal texnologiyalardan istifadə etmək üçün şagirdləri həvəsləndirməyən və ya həvəsləndirə bilməyə əngəl olan faktorların araşdırılması və əldə olunan nəticəyə uyğun olaraq problemin həlli yollarının aşkarlanmasının faydalı olacağı düşünülməkdədir.

Sorğuda iştirak edən şagirdlərin təxminən 46%-nın elektron cihazların yanlarında olmadığı zamanlarda özlərini qətiyyən pis hiss etməməsi, eyni zamanda 58%-nin internetdən istifadə etmədikləri zamanlarda psixoloji olaraq özlərini pis (gücsüz) hiss etmədiyi görünmüşdür. İnternetdən istifadə etmədiyi zamanlarda psixoloji vəziyyətlərində mənfi halların olmadığını qeyd edən şagirdlərin faizlərinin yüksək olması müsbət bir hal olaraq qiymətləndirilsə də, texnologiya aludəçisi olan şagirdlərin varlığı da təkzibedilməzdir. Texnologiyalar hər yaşdan olan insanlar üçün cəzbedici, həyatı asanlaşdıran bir sahə olaraq bilinir və insan həyatına gətirdiyi saysız-hesabsız faydaları vardır. Lakin internetdən və rəqəmsal texnologiyalardan həddindən artıq istifadə edilməsi aludəçiliyin yaranmasına gətirib çıxara bilər. İnternet aludəçiliyi davranış ilə əlaqəli bir aludəçilik olaraq kateqoriyalaşdırılır. İnternetdən həddindən artıq istifadə, internet audəçiliyinin təsnifində ən çox müəyyənedici göstəricidir. Bu mənada, internet aludəçiliyi fərdin internetdən istifadəsində özünə nəzarət edə bilməməsi və nəticədə psixoloji, sosial və akademik həyatında problemlərlə qarşılaşmasıdır (Yengin, 2019). Bu düşüncədən hərəkətlə, internetdən və rəqəmsal texnologiyalardan istifadədə nəzarətin itirilməsi və texnologiyalardan ölçüsüz və limitsiz istifadə edilməsinin çox ciddi duyğusal və fiziki zərərlərin ortaya çıxmasına səbəb ola biləcəyi qeyd edilə bilər. Bundan əlavə, narahatlıq, depressiya, sosial dəstəyin əskikliyi, stress və s. kimi faktorların da rəqəmsal aludəçilik üçün risk faktorlar olduğu ifadə edilir (Rugai & Ekeke, 2016). İnternetdən və rəqəmsal texnologiyalardan həddən çox istifadə edilməsi nəticəsində ortaya çıxan zərərləri önləmək üçün xüsusilə valideynlərin üzərinə böyük öhdəliklər düşür. Valideynlər ilk növbədə özlərinin

texnologiyadan istifadə vərdişlərini nəzərdən keçirməlidirlər. Texnologiya aludəçiliyi olan ailələrdəki uşaqlarda da bənzər problemlərin ortaya çıxma ehtimalı yüksəkdir. Əlavə olaraq, xüsusilə pandemiya dövründə evə qapanmalar, tədris prosesinin məsafədən həyata keçirilməsi, şagirdlərin həmyaşıdları və dostları ilə sosiallaşma fəaliyyətlərindəki məhdudiyyətlər və bu səbəblərdən qaynaqlı olaraq ortaya çıxa biləcək təşviş problemi, stress, ailə bağlarının zəifliyi və sosial dəstəyin azlığı və ya əskikliyi kimi faktorların texnologiya aludəçəliyi üçün risk doğurduğu nəzərə alındığı zaman, valideynlərin bu prosesi doğru idarə etməsi zəruridir. Uşaqların internetdən istifadəsinə tamamilə məhdudiyyət qoymaq və ya texnoloji cihazlardan istifadə etməyi qadağan etmək yanlış bir mövqe ola bilər. Bunun yerinə valideynlərin uşaqların yaşına, internetdən istifadənin məzmununa və müddətinə uyğun bir izləmə mexanizmi yaratmağın daha effektiv ola biləcəyi təxmin edilir.

Araşdırmada iştirak edən şagirdlərin 58%-i həmyaşıdları və dostları ilə gündə “1 saata qədər” zaman keçirdiyini, 29,8%-i “1-3 saat” zaman keçirdiyini, 9,5%-i “4-6 saat” zaman keçirdiyini və 2,7%-isə gün ərzində “6 saatdan” çox vaxt keçirdiyi qeyd etmişdir. Bu isə sorğuda iştirak edən şagirdlərin təxminən 12%-dən çoxunun həmyaşıdları və dostları ilə gün ərzində virtual aləmdə dörd saatdan çox vaxt keçirdiyini göstərmişdir. COVID-19 pandemiyasının sürətli bir şəkildə yayılması və yoluxma hallarının qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində evə qapanmalar məktəblilərin demək olar ki bütün ehtiyaclarını rəqəmsal texnologiyalar vasitəsi ilə təmin etməsinə səbəb olmuşdur. Belə ki, şagirdlər rəqəmsal texnologiyalar vasitəsi ilə həm təhsil prosesinə davam etmiş və virtual sinif mühitində dərslərdə iştirak etmiş, həm də sosiallaşmaq və dostluq münasibətlərini davam etdirmək üçün onlayn platformalardan faydalanmışdır. Şagirdlərin digər həmyaşıdları və dostları ilə münasibətlərini onlayn platformalar üzərindən davam etdirməsi təbii bir hal olaraq qiymətləndirilsə də, bu münasibətlərin miqdarının çox olması şagirdlərdə texnologiya aludəçiliyinin yaranmasına səbəb olacaq faktor olaraq qiymətləndirilə bilər. Ona görə də xüsusilə valideynlərin bu kimi məsələlərə ciddi yanaşması və internetdən istifadə müddətinə və məqsədlərinə nəzarət etməsi önəmlidir.

Sorğuda iştirak edən şagirdlərin rəqəmsal texnologiyalardan daha çox hansı məqsədlə istifadə edildiyinə dair cavablarda “dərslərim üçün” cavabı ən yüksək faizlə (94,4%) ilk sırada yer almışdır. Təhsil prosesinin məsafədən təşkil olunduğu bir dövrdə şagirdlərin böyük bir qisminin rəqəmsal texnologiyalardan dərsləri üçün istifadə etməsi tamamilə təbii bir hal olaraq qiymətləndirilə bilər. Eyni zamanda, gün ərzində sosial şəbəkələrdə və oyun platformalarında nə qədər zaman keçirdikləri sualına verilən cavablar analiz edildiyi zaman isə şagirdlərin 63%-i bu müddətin bir saata qədər olduğunu, 26,2%-i 1-3 saat arasında zaman keçirdiyini, 6,8% şagird “4-6 saat” zaman keçirdiyini və 3,6% şagird isə gündə “6 saatdan” çox vaxt keçirdiyini qeyd etmişdir. Bu isə təxminən 10% şagirdin gün ərzində sosial şəbəkələrdə və oyun platformalarında dörd saatdan artıq vaxt keçirdiyini göstərmişdir. COVID-19 pandemiyası dövründə şagirdlərin ehtiyaclarını rəqəmsal texnologiyalar vasitəsi ilə təmin etməsi normal bir vəziyyət olaraq qəbul edilsə də, rəqəmsal texnologiyalar vasitəsilə sosiallaşma, yəni dostlarla/həmyaşıdları ilə söhbət və ya sosial şəbəkələrdən istifadə və video oyun platformalarında həddindən artıq zaman keçirmə texnologiya aludəçiliyinə səbəb ola bilər. Ümumdünya Səhiyyə Təşkilati (WHO) kompüter oyunları aludəçiliyini “zehni sağlamlıq problemi” kateqoriyasına əlavə etmişdir. “Oyun xəstəliyi” olaraq adlandırılan bu xəstəlik “fərdin maraqlarını və gündəlik fəaliyyətlərini müəyyənləşdirməkdə problemlər yaradan və daima təkrarlanan ciddi bir asılılıq və şiddətli davranış nümunəsi” olaraq xarakterizə edilmiş və Xəstəliklərin Beynəlxalq Təsnifatının (The International Classification of Diseases) 11-ci buraxılışında siyahıya əlavə etmişdir (WHO, 2018). Pandemiya dövründə evə qapanmalar

nəticəsində şagirdlərin kompüter oyunlarından həddən artıq istifadəsi zamanı meydana çıxa bilən bu kimi problemlərin ortadan qaldırılmasında ən böyük öhdəçilik valideynlərin üzərinə düşür. Bu çərçivədə şagirdlərin rəqəmsal texnologiyalardan xüsusilə kompüter oyunları üçün istifadə etməsi zamanı valideynlərin nəzarət prosesini effektiv bir şəkildə həyata keçirə bilməsi üçün izləmə mexanizmlərinin yaradılması və tətbiqinin əhəmiyyətli olacağı ifadə edilə bilər.

Araşdırmada kiber zorakılıq ilə əlaqəli suallara verilən cavabların xülasəsi aşağıdakı şəkildədir:

- Sorğuda iştirak edən şagirdlərin ən az 17%-i nadir hallarda olsa belə kiber zorakılıq ilə qarşılaşmışdır;
- Ən az 24% şagird dostlarının və ya tanımadığı insanların ona xoşagəlməz mesajlar göndərdiyi ifadə etmişdir;
- Ən az 7% şagird minimum bir dəfə başqa insanların və ya dostlarının onun internetə yüklədiyi şəkillərini şagirdin icazəsi/xəbəri olmadan fərqli onlayn platformalarda paylaşdığını qeyd etmişdir;
- Ən az 7% şagird virtual mühitdə başqalarına qarşı minimum bir dəfə kiber zorakılıq etdiyini ifadə etmişdir;
- Sorğuda iştirak edən şagirdlərin 4%-ə yaxını dostlarının şifrələrindən və ya şəxsi məlumatlarından onlardan xəbərsiz internetdə istifadə etdiyini vurğulamışdır;
- Sorğuda iştirak edən şagirdlərin 5%-i tanımadıqları adamların şəxsi məlumatlarından ən az bir dəfə istifadə etdiyini bildirmişdir;
- 32% şagird ən az bir dəfə internetdə/virtual aləmdə tanımadığı insanlarla söhbət/müzakirə etdiyini bildirmişdir;
- Ən az 33% şagird real həyatda tanımadığı insanlarla virtual aləmdə dostluq etdiyini qeyd etmişdir;
- Ən az 22% şagird internetdə narahatedici bir situasiya ilə, yəni kiber zorakılıq ilə qarşılaşdığı zaman bu vəziyyəti heç kimlə paylaşmadığını ifadə etmişdir.

Qeyd olunan statistikalara nəzər yetirildiyi zaman sorğuda iştirak edən şagirdlərin bu və ya digər dərəcədə həm kiber zorakılıq qurbanı olduğu, həm də kiber zorakılıq etdiyi ifadə edilə bilər. Ümumiyyətlə kiber zorakılığın xüsusilə internet çağında ortaya çıxan yeni bir zorakılıq növü olduğu qeyd edilə bilər. Kiber zorakılıq və ya elektron zorakılıq mobil telefonları və ya internet kimi elektron vasitələrlə həyata keçirilən zorakılıq olaraq ifadə edilir (Olweus, 2012). UNICEF (2020) da kiber zorakılığı rəqəmsal texnologiyaların tətbiqi ilə həyata keçirilən zorakılıq olaraq ifadə etməklə bərabər bu zorakılıq növünün sosial mediada, mesajlaşma platformalarında, oyun platformalarında baş verə biləcəyini vurğulayır. UNICEF-ə görə kiber zorakılıq hədəf edilən şəxsləri qorxutmaq, hirsləndirmək və ya utandırmaq məqsədi daşıyan təkrarlanan davranışlardır. Kiber zorakılıq adətən özünü müdafiə edə bilməyən həmyaşıdlarına qarşı qəsdən edilən aqressiv davranışın bir formasıdır (Kowalski, Limber & Agatston, 2012). COVID-19 pandemiyası dövründə şagirdlərin interneti günlük həyatlarının ayrılmaz bir parçası olaraq gördüyünü, dostları/həmyaşıdları ilə söhbət etmə və zaman keçirmək və eyni zamanda müxtəlif növ oyunlar vasitəsilə istifadə etdiyini qeyd etmək mümkündür.UNESCO (2020b) internet istifadəsinin artmasının uşaqları cinsi istismar və kiber zorakılıq kimi onlayn zərərlərə qarşı daha böyük risk altında buraxa biləcəyin qeyd etmişdir. Bu çərçivədə, COVID-19 dövründə artan internet istifadəsi, internetin şagirdlərin günlük həyatının bir parçasına çevrilməsi qeyd edilən potensial risklərin, yəni kiber zorakılığın, onlayn cinsi istismar kimi onlayn zərərlərin

ortaya çıxmasına şərait yarada biləcəyi düşünülə bilər. Sosial qarşılıqlı əlaqə sahəsi kimi internetdən istifadənin sərhədləri tam nəzarət altına alına bilməyən böyük bir sahə olduğu ifadə edilə bilər. L1GHT (2020) tərəfindən həyata keçirilən yeni bir araşdırma çərçivəsində COVID-19 pandemiyasının başlandığı dövrdə milyonlarca veb səhifəsi və sosial platformalar analiz edilmişdir. Araşdırma nəticələri uşaqlar arasında sataşma və təhqiramiz dil səviyyələrində nəzərəçarpacaq dərəcədə artımın olduğunu göstərmişdir. Belə ki, araşdırma çərçivəsində aparılan təhlillər sosial mediada və söhbət forumlarında uşaq və gənclər arasında zorakılıq və təhqiramiz dilin istifadəsində 70%, oyun platformalarında isə nifrət nitqində 40% artımın olduğunu göstərmişdir. Bu isə xüsusilə pandemiya dövründə bir çox fəaliyyət üçün internetdən istifadə etmək məcburiyyətində olan uşaq və gənclər arasında kiber zorakılığın artığını göstərmişdir.

UNESCO (2020b)-yə görə uşaqlar qəfildən uzun müddət onlayn rejimdə planlanmamış vaxt keçirərkən və stress yaradan faktorlarla mübarizə apararkən kiber zorakılıq çoxala bilər. Pandemiya dövründə təhsil müəssisələrinin fəaliyyətini məsafədən olacaq şəkildə davam etdirməsi, şagirdlərin gözlənilmədən belə bir təcrübə ilə qarşılaşması, vəziyyətdən qaynaqlı olaraq ortaya çıxa biləcək stress və narahatlıqların rəqəmsal aludəçilik ilə bərabər kiber zorakılığın çoxalmasına da təsir edə biləcəyi güman edilə bilər. Həmçinin, rəqəmsal savadlılıq dərəcəsi yüksək olan şagirdlərin internet təhlükəsizliyi, kiber zorakılıq, onlayn mənbələrdən istifadə etmə etikasına sahib olduğu düşünülə bilər. Lakin bütün şagirdlərin bu mövzuda eyni səviyyədə məlumat sahibi olmaması təkzib edilə bilməz bir faktdır. Şagirdlərə nəyin kiber zorakılıq olub-olmadığını, onlayn kanallarda hansı vəziyyətlərdə və hansı duyğuları hiss etdiyi zaman kiber zorakılığa məruz qalmış ola biləcəyi öyrədilməlidir. Əlavə olaraq şagirdlərin hər hansı bir kiber zorakılıqdan qorunmaq üçün nələr edə biləcəyi, qarşılaşdığı kiber zorakılıq durumları ilə necə başa çıxa biləcəyi və kimlərdən yardım istəyə biləcəyi mövzusunda məlumatlandırılması önəmlidir. Bu işdə isə əsas öhdəlik valideynlərin və müəllimlərin üzərinə düşür. Kiber zorakılığa qarşı effektiv mübarizə məktəb-şagird-ailə üçbucağında aparıla bilər. Bu səbəbdən ailə ilə məktəb arasında ünsiyyət və koordinasiya çox vacibdir. Müəllimlər və valideynlər, uşaqlarının onlayn dünyada etibarlı bir şəkildə gəzmələri üçün ehtiyac duyduqları bilik və bacarıqları təmin etmək işində əhəmiyyətli bir rola sahibdirlər. Uyğun bir qaydada valideyn nəzarətini təmin etmək və uşaqlar ilə açıq bir dialoq qurmaq, uşaqlarla oflayn fəaliyyətlər üçün zaman ayırmaq valideynlərin onlayn zərərlərin qarşısının alınmasına yardımçı ola bilər. Ancaq bunun üçün də həm valideynlərin, həm də müəllimlərin özlərinin risklərin fərqində olmaları və şagirdlərə rəhbərlik edə bilmələri üçün qənaətbəxş səviyyədə rəqəmsal bacarıqlara sahib olmaqları şərtdir.

## Referanslar


Azərbaycan İnformasiya Cəmiyyəti (2020). Statistik Məcmuə. https://www.stat.gov.az/source/information_society/?lang=az 18.01.2021

Eshet-Alkalai, Y. (2004). Digital literacy: A conceptual framework for survival skills in the digital era. *Journal of Educational Multimedia and Hypermedia,,* 93-106.

Hatumoğlu, N. B., Güngören, Ö. C., Uyanık, G. K. & Erdoğan, D. G. (2017). Dijital Okuryazarlık Ölçeği: Türkçe 'ye Uyarlama Çalışması. *Ege Eğitim Dergisi, 18*(1), 408-429.

Griffith University (2020). https://www.griffith.edu.au/staff/working-remotely/data-usage 12.01.2021

Kowalski, R. M., Limber, S. P., & Agatston, P. W. (2012). *Cyberbullying: Bullying in the digital age (2nd ed.).* N.J: Riley–Blackwell.

L1ght (2020). L1ght Releases Groundbreaking Report on Corona-Related Hate Speech and Online Toxicity. https://l1ght.com/l1ght-releases-groundbreaking-report-on-corona-related-hate-speech-and-online-toxicity/ 02.02.2021

OECD (2019), *How's Life in the Digital Age?: Opportunities and Risks of the Digital Transformation for People's Well-being*, OECD Publishing, Paris, https://dx.doi.org/10.1787/9789264311800-en. 10.01.2021

Olweus, D. (2012). Cyberbullying: An overrated phenomenon? *European Journal of Developmental Psychology, 9*, 1-19.

OOCLA (2020). Speed test global index. https://www.speedtest.net/global-index 13.10.2021

Reimers, F. & Schleicher, A. (2020). A framework to guide an education response to the COVID-19 Pandemic of 2020. https://globaled.gse.harvard.edu/files/geii/files/framework_guide_v2.pdf 21.01.2021

Rugai, J. & Hamiliton-Ekeke, J. (2016). A Review of Digital Addiction: A Call for Safety Education. *Journal of Education and e-Learning Research, 3*(1), 17-22

Sadiq, Ş. (2020). https://www.muallim.edu.az/news.php?id=12525 01.10.2020

UNESCO (2020a). COVID-19 impact on Education https://en.unesco.org/COVID-19/ educationresponse/countries . https://en.unesco.org/COVID-19/educationresponse 02.01.2021

UNESCO (2020b). Cyberbullying: What is it and how to stop it. 10 things teens want to know about cyberbullying. https://www.unicef.org/end-violence/how-to-stop-cyberbullying 02.01.2021

UNICEF (2020). COVID-19 and Its Implications for Protecting Children Online, https://www.unicef.org/media/67396/file/COVID-19%20and%20Its%20Implications%20for%20Protecting%20Children%20Online.pdf 02.02.2021

Yengin, D. (2019). Teknoloji bağlımlılığı olarak dijital bağımlılık. *The Turkish Online Journal of Design, Art and Communication – TOJDAC, 9*(2), 130-144.

World Economic Forum (2020). *Will the coronavirus break the internet?*

https://www.weforum.org/agenda/2020/03/will-coronavirus-break-the-internet/ 11.01.2021

WHO (2018). Addictive behaviours: Gaming disorder. https://www.who.int/news-room/q-a-detail/addictive-behaviours-gaming-disorder 01.02.2021

# ƏLAVƏ. Tədqiqatda istifadə olunan suallar

| Kateqoriya | N | Sual | Seçimlər |
|---|---|---|---|
| **Azərbaycanda internetə çıxış və istifadə imkanları** | 1 | Evdə hansı növ internetdən istifadə olunur? | a) Wifi<br>b) Mobil internet paketləri |
| | 2 | İstifadə olunan internetin keyfiyyəti necədir? | a) Çox pisdir<br>b) Qənaətbəxşdir<br>c) Yaxşıdır<br>d) Əladır |
| **Ailələrdə rəqəmsal cihazların mövcudluğu** | 3 | Ailədə elektron cihazların vəziyyəti necədir? | a) Bərabərdir<br>b) Cihaz sayı azdır<br>c) Cihaz sayı çoxdur |
| | 4 | Ailədə ən çox istifadə olunan elektron cihaz hansıdır? | a) Telefon<br>b) Kompüter<br>c) Planşet |
| **Şagirdlərin rəqəmsal bacarıqlarının vəziyyəti** | 5 | İnternet vasitəsi ilə hər cür məlumat əldə edə bilərəm. | a) Qətiyyən razı deyiləm<br>b) Razı deyiləm<br>c) Qismən razıyam<br>d) Razıyam<br>e) Tamamilə razıyam |
| | 6 | Rəqəmsal texnologiyalardan istifadə etmək üçün kifayət qədər bacarıqlara sahibəm | a) Qətiyyən razı deyiləm<br>b) Razı deyiləm<br>c) Qismən razıyam<br>d) Razıyam<br>e) Tamamilə razıyam |
| **COVID-19 pandemiyası dövründə uşaq və gənclərin rəqəmsal istifadəsi** | 7 | COVID-19 pandemiyasından əvvəlki dövr ilə müqayisədə pandemiya dövründə elektron cihazlardan və internetdən istifadə necə dəyişdi? | a) Eyni qədər istifadə etmişəm<br>b) Əvvəllər daha çox istifadə edirdim<br>c) İndi daha çox istifadə edirəm |
| | 8 | COVİD-19-dan əvvəl rəqəmsal texnologiyalardan daha çox hansı məqsədlə istifadə edirdiniz? | a) Dərs tapşırıqlarını yerinə yetirmək üçün<br>b) Dərsdənkənar fəaliyyətlər üçün<br>c) Oyun üçün<br>d) Sosial şəbəkələr üçün<br>e) Dostlarla söhbət üçün |
| | 9 | COVİD-19-dan sonra rəqəmsal texnologiyalardan daha çox hansı məqsədlə istifadə edirsiniz? | a) Dərs tapşırıqlarını yerinə yetirmək üçün<br>b) Dərsdənkənar fəaliyyətlər üçün<br>c) Oyun üçün<br>d) Sosial şəbəkələr üçün<br>e) Dostlarla söhbət üçün |
| **Rəqəmsal texnologiyaların istifadəsində məktəb təcrübəsi** | 10 | Təhsil aldığınız məktəbdə pandemiyaya qədərki dövrdə rəqəmsal texnologiyalardan necə istifadə olunurdu? | a) İstifadə olunmurdu<br>b) Nadir hallarda istifadə olunurdu<br>c) Çox vaxt istifadə olunurdu<br>d) Hər zaman və yüksək keyfiyyətdə istifadə olunurdu |
| | 11 | Məktəb onlayn dərslərin təşkili üçün hər şəraiti yaradır | a) Razı deyiləm<br>b) Qismən razıyam<br>c) Tamamilə razıyam |

| | | | |
|---|---|---|---|
| | 12 | Müəllimlərinizin rəqəmsal texnologiyalardan istifadə bacarığı hansı səviyyədədir? | a) Çox aşağı<br>b) Orta<br>c) Yaxşı<br>d) Əla |
| **Rəqəmsal istifadədə valideyn və müəllim vasitəçiliyi** | 13 | Valideynlərim və müəllimlərim rəqəmsal texnologiyaların istifadəsi ilə bağlı məni həvəsləndirir və yönləndirir | a) Heç vaxt<br>b) Nadir hallarda<br>c) Bəzən<br>d) Çox vaxt<br>e) Hər zaman |
| **Həddindən artıq internet istifadəsi problemi** | 14 | Yanımda elektron cihazlar (telefon, planşet, kompüter və s.) olmadığı zaman özümü pis hiss edirəm | a) Heç vaxt<br>b) Nadir hallarda<br>c) Bəzən<br>d) Çox vaxt<br>e) Hər zaman |
| | 15 | İnternet əlaqəm olmadığı zaman / oflayn olduğum zaman özümü gücsüz hiss edirəm | a) Heç vaxt<br>b) Nadir hallarda<br>c) Bəzən<br>d) Çox vaxt<br>e) Hər zaman |
| **Yaşıdları və dostları ilə onlayn platformalar üzərində qurulan münasibətlər** | 16 | Həmyaşıdlarınız və dostlarınız ilə virtual aləmdə nə qədər zaman keçirirsiniz? | a) Gündə bir saata qədər<br>b) Gündə 1-3 saat<br>c) Gündə 4-6 saat<br>d) Gündə 6 saatdan çox |
| **Sosial şəbəkə səhifələrinin və video oyun platformalarının istifadə vəziyyəti** | 17 | Rəqəmsal texnologiyalardan (kompüter, smartfon) daha çox nə üçün istifadə edirsiniz? | a) Dərslərim üçün<br>b) Sosial şəbəkələr üçün<br>c) Oyun üçün<br>d) Dostlarım ilə söhbət üçün |
| | 18 | Gün ərzində sosial şəbəkələrdə və oyun platformalarında nə qədər zaman keçirirsiniz? | a) Gündə bir saata qədər<br>b) Gündə 1-3 saat<br>c) Gündə 4-6 saat<br>d) Gündə 6 saatdan çox |
| **Kiber zorakılıq** | 19 | Başqa bir uşaq onlayn mühitdə sizə qarşı kobudluq edirmi? | a) Heç vaxt<br>b) Nadir hallarda<br>c) Bəzən<br>d) Çox vaxt<br>e) Hər zaman |
| | 20 | İnternetdəki digər insanlar və ya dostlarım mənə bəyənmədiyim mesajlar göndərir | a) Heç vaxt<br>b) Nadir hallarda<br>c) Bəzən<br>d) Çox vaxt<br>e) Hər zaman |
| | 21 | Başqa insanlar və ya dostlarım internetə yüklədiyim şəkillərimi mənim icazəm/xəbərim olmadan fərqli saytlarda paylaşırlar | a) Heç vaxt<br>b) Nadir hallarda<br>c) Bəzən<br>d) Çox vaxt<br>e) Hər zaman |
| | 22 | Siz onlayn mühitdə başqalarına qarşı kobudluq edirsinizmi? | a) Heç vaxt<br>b) Nadir hallarda<br>c) Bəzən<br>d) Çox vaxt<br>Hər zaman |
| | 23 | Dostlarımın şifrələrindən və onların şəxsi məlumatlarından, onlardan xəbərsiz internetdə istifadə edirəm | a) Heç vaxt<br>b) Nadir hallarda<br>c) Bəzən<br>d) Çox vaxt<br>e) Hər zaman |

| | | | |
|---|---|---|---|
| | 24 | İnternetdə şəxsən tanımadığım insanların şəxsi məlumatlarından istifadə edirəm | a) Heç vaxt<br>b) Nadir hallarda<br>c) Bəzən<br>d) Çox vaxt<br>e) Hər zaman |
| | 25 | İnternetdə/virtual aləmdə tanımadığınız insanlarla söhbət/müzakirə edirsinizmi? | a) Heç vaxt<br>b) Nadir hallarda<br>c) Bəzən<br>d) Çox vaxt<br>e) Hər zaman |
| | 26 | Realda tanımadığınız insanlarla virtual aləmdə dostluq edirsinizmi? | a) Heç vaxt<br>b) Nadir hallarda<br>c) Bəzən<br>d) Çox vaxt<br>e) Hər zaman |
| | 27 | İnternetdə narahatedici bir vəziyyətlə qarşılaşdığım zaman bunu ailə üzvlərim/dostlarım ilə paylaşıram | a) Heç vaxt<br>b) Nadir hallarda<br>c) Bəzən<br>d) Çox vaxt<br>e) Hər zaman |